# Bu günlərdə məktub, ya da zəng olacaq

Erməni girovluğunda olan əsgərimizin anası "Şərq"ə danışdı



**Naxçıvan istiqamətində yolu azaraq Ermənistana keçən və əsir götürülən Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundovdan xəbər var.**

Onun hazırkı vəziyyəti ilə bağlı "Şərq"ə anası Şəlalə Axundova məlumat verib. O bildirib ki, oğlu ilə hələ əlaqə yarada bilməyib: "Araşdırma aparılır. Qızıl Aypara Cəmiyyəti bu gün uşaqlarla bağlı məlumat veriblər.

(səh.4)

## ABŞ İrana PUA üçün avadanlıq almağa kömək edən şirkətləri "qara siyahı"ya salıb




**ABŞ tərəfindən İrana PUA üçün avadanlıq almağa kömək edən şirkətlərə sanksiya tətbiq olunub.**

"Report" xəbər verir ki, bu barədə ABŞ Maliyyə Nazirliyinin yaydığı bəyanatda deyilir.

Bildirilib ki, bu gün ABŞ Xəzinədarlığının Xarici Aktivlərə Nəzarət İdarəsi pilotsuz uçuş aparatları (PUA) və silah istehsalı üçün elektronikanın alınmasında İrana dəstək verən altı hüquqi və bir fiziki şəxsə sanksiya tətbiq edib.

❒ № 68 (5829) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 aprel 2023-cü il (cümə axşamı)



# Bakıda bütün köhnə binalar söküləcək

Qədimi binalarda isə bərkitmə və möhkəmləndirmə işləri aparılacaq

**Dünən AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində qardaş Türkiyə Respublikasının zəlzələ bölgəsində azərbaycanlı mütəxəssislər tərəfindən aparılan tədqiqat işləri ilə bağlı mətbuat konfransı keçirilib.** RSXM-nin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli bildirib ki, mərkəz əməkdaşları Türkiyənin zəlzələ bölgəsində ən çox dağıntıya məruz qalan Kahramanmaraş şəhəri və zəlzələnin episentrində olan Pazarcık qəsəbəsində qravimetrik, maqnitometrik, mühəndisi-seysmik və makroseysmik tədqiqatlar aparıblar. Hazırda ərazidən toplanmış məlumatlar analiz edilir.

(səh.4)



# Ramazan bayramınız mübarək olsun!

Prezident İlham Əliyev Azərbaycan xalqını təbrik edib

**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik edib.**

Təbrikdə deyilir:

"Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Başər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

# ABŞ və İsrail nümayəndələri Xudafərin körpüsündə...

"Biz bura Azərbaycanın İranla bağlı üzləşdiyi problemləri göstərmək üçün gəlmişik"



**ABŞ-də fəaliyyət göstərən Amerika-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qringerin rəhbərlik etdiyi nümayəndə heyəti işğaldan azad edilmiş Cəbrayıl rayonuna səfər edib. Nümayəndə heyəti Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüsündə olub. Qonaqlara tarixi abidə barədə məlumat verilib.**

ABŞ-də fəaliyyət göstərən "Yentas in the City" podkast şirkətinin rəhbəri Ester Eti El-Kiss Mizrahi bildirib ki, onlar bura ABŞ və İsraildən olan oxucuları üçün Azərbaycanın İranla bağlı üzləşdiyi problemləri göstərmək üçün gəliblər: "Bura gəlmək çox vacib idi". Onun sözlərinə görə, Azərbaycan haqqında çoxlu yalan var ki, onlar bunu dəyişmək istəyirlər: "Mən jurnalist olaraq İranla bağlı, habelə Şuşada mövcud vəziyyəti göstərmək istəyirəm. Biz dünyanın Azərbaycan haqqında yanlış təsvirini dəyişmək istəyirik. Keçən axşam biz xristian, müsəlman və yəhudilər ilə birlikdə kulinariya məşğələsinə qatıldıq.

(səh.4)

# Əfv Komissiyası 100-dən artıq müraciətə baxıb



**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

İclasda əfvlə bağlı 100-dən artıq müraciətə baxılıb.

Qeyd edək ki, indiyədək iclaslarda əfvlə bağlı 1 600-dən artıq müraciətə baxılıb.

Azərbaycanda ötən il imzalanan sonuncu əfv sərəncamına əsasən, ümumilikdə 213 nəfər əfv edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 168 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 36 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 3 nəfər cəzadan azad ediliblər. Həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 6 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olunub.

# Xüsusi karantin rejimi iyulun 1-nə qədər uzadılıb

Quru sərhədlərinin bağlı olmasına görə üçüncü ildir ki, insanlar qazanc yerlərini itirib




**Hökumət xüsusi karantin rejiminin müddətini yenə uzatdı. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.**

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 1 iyul saat 06:00-dək uzadılıb. Qeyd edək ki, bundan əvvəlki qərara əsasən, xüsusi karantin rejiminin müddəti mayın 1-dək uzadılmışdı.

(səh.4)



# Hamısı qızlardır

4 abituriyent ən yüksək balı topladı

**Məlum olduğu kimi, martın 12-də keçirilən buraxılış imtahanının nəticələri açıqlanıb.**

İmtahanda 297.5 bal toplamaqla yüksək nəticə göstərən 4 abituriyent var:

Abışova Fidan Yusif qızı - Bakı şəhər Nəsimi rayon Texniki-humanitar liseyi;

Cəfərzadə Talia Cavid qızı - Bakı şəhər Nəsimi rayon Texniki-humanitar liseyi;

Mürşüdlü Nəzrin Elxan qızı - Səbail rayon 160 nömrəli Klassik gimnaziya...

(səh.4)

# Bəzi məktəblər distant təhsilə keçir



**Bakıda keçiriləcək Formula 1 yarışı ilə əlaqədar 24-29 aprel tarixlərində 6, 132-134, 1, 7, 8, 160 nömrəli ümumi təhsil müəssisələrində tədris onlayn təşkil olunacaq.**

Elm və Təhsil Nazirliyindən artıq bununla bağlı məktəb rəhbərliyinə və valideynlərə məlumat verilib.

*Qeyd edək ki, Bakı Qran Prisi 28-30 apreldə baş tutacaq.*

# Vəfat edən olmayıb

Daha 75 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 75 yeni yoluxma faktı qeydə alınıb, 101 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 830 993 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 820 317 nəfər müalicə olunaraq sağalıb, 10 217 nəfər vəfat edib, aktiv xəstə sayı 459 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 561, hazırkı dövrədək isə 7 579 826 test aparılıb.*



# Paşinyan sülh müqaviləsinə yaxınlaşdı

Baş nazirin bəyanatları adətən ziddiyyət təşkil etsə də, sonuncu açıqlamalarında etiraflar çoxdur

(səh.2)



# Məhərrəm İncə populist siyasətçidir

Seçki ikinci tura qalsa belə, mübarizə Ərdoğan və Kılıçdaroğlu arasında gedəcək

(səh.5)



# İsraillə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir

## Azərbaycan Cənubi Qafqazda şəriksiz geopolitik iradə sahibidir

**Prezident İlham Əliyev aprelin 19-da İsrailin xarici işlər naziri Eli Koheni qəbul edib. Azərbaycan-İsrail münasibətlərini yüksək qiymətləndirən dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin mövcud olduğunu bildirib. Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin açılmasını əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirib.**

Bu əlaqələrin dostluq, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslandığını vurğulayıb. Dövlət başçısı hökumətlərarası birgə komissiyanın fəaliyyətini xüsusi qeyd edib. Bunun əlaqələrin şaxələnməsi işinə töhfə verə biləcəyinə ümidvarlığını bildirib. Ölkə rəhbəri Ələt Azad İqtisadi Zonasında İsrail şirkətlərinin fəaliyyət göstərmələri və yeni layihələrlə çıxış etmələri üçün yaxşı imkanların olduğunu deyib. Eli Kohen də öz növbəsində Azərbaycanın İsraildə səfirliyinin açılmasını yüksək qiymətləndirib. Qonaq bunun ölkələrimiz arasında strateji əlaqələr qurulması işinə töhfə verəcəyinə ümidvarlığını bildirib. İsrail-Azərbaycan arasındakı əlaqələrin strateji xarakter daşıdığını vurğulayıb. O, dostluq münasibətlərimizin təkcə dövlətlərimiz arasında deyil, xalqlarımız arasında da mövcud olduğunu bildirib. Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etdiyini vurğulayan İsrailin xarici işlər naziri turizm sahəsində əlaqələrimizə də toxunub. Ölkəsindən Azərbaycana gələn turistlərin sayının artmaqda olduğunu qeyd edib. İki ölkə arasında ticarət dövriyyəsinin artım tempinin müşahidə olunduğunu deyərək, bunun daha da artırılması üçün geniş imkanların olduğunu vurğulayıb. Görüşdə iqtisadiyyat, enerji, kənd təsərrüfatı, bərpaolunan enerji, investisiyalar, elm, təhsil, mədəniyyət, turizm, təhlükəsizlik sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulanıb.

Bu baxımdan, İsrail üçün Azərbaycanla yüksək səviyyəli münasibətlərin qorunması olduqca cəlbedicidir

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, Azərbaycan və İsrail münasibətlərinin inkişaf etdirilməsi hər iki tərəf üçün böyük əhəmiyyət daşıyır. Analitikin sözlərinə görə, böyük ehtimalla yaxın gələcəkdə bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəldilməsi də qətiyyən istisna deyil:** "Azərbaycan Cənubi Qafqazda şəriksiz geopolitik iradə sahibidir. Bu baxımdan, İsrail üçün Azərbaycanla yüksək səviyyəli münasibətlərin qorunması olduqca cəlbedicidir. Üstəlik, Azərbaycan yəhudi icmasının heç bir problemlə üzləşmədən yaşadığı dünyanın nadir ölkələrindəndir. Nəhayət, Azərbaycan İsrail üçün türk dünyasına, o cümlədən də Orta Asiya regionuna "pəncərə" rolunu da oynaya bilər. Və bu, iqtisadi-ticari baxımdan, olduqca sərfəli əməkdaşlıq perspektivləri açır.

İsraillə münasibətlərin inkişafı Azərbaycan üçün də önəmlidir. Çünki İsrail müasir texnologiyalara sahib olan bir dövlətdir. Xüsusilə də, İsrail hərbi sənaye kompleksinin istehsalı olan müasir silah növləri Azərbaycanın maraq dairəsinə daxildir".

E.Xalidbəyli vurğulayıb ki, Azərbaycan və İsrail münasibətlərindən narahat olan ölkələr də mövcuddur: "Halbuki bu münasibətlərin hansısa üçüncü ölkəyə qarşı yönəlmədiyi də indiyə qədər dəfələrlə bəyan edilib. Rəsmi Bakı digər ölkələr arasında olan ziddiyyətlərdə tərəfə çevrilmək niyyətindən çox-çox uzaqdır. Yəni Azərbaycan-İsrail münasibətləri yalnız bu iki ölkənin iqtisadi-ticari əməkdaşlığını əhatə edir və başqa ölkələrə qarşı yönəlməyib".

**İsmayıl Qocayev**

# Ramazan bayramınız mübarək olsun!

## Prezident İlham Əliyev Azərbaycan xalqını təbrik edib



**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik edib.**

Təbrikdə deyilir:

"Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.

**Əziz bacı və qardaşlarım!**

Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

**Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin.**

**Ramazan bayramınız mübarək olsun!"**

# Azərbaycanın Rus icması Zabrat qəbiristanlığındakı hadisə ilə bağlı bəyanat yayıb



**Zabrat qəbiristanlığında baş verənlər tolerant, multikultural Azərbaycan cəmiyyətində, ictimaiyyətində və mediada hiddət doğurdu.**

Bu fikirlər Azərbaycanın rus icmasının Zabrat-1 və Balaxanı kəndləri arasında yerləşən Zabrat qəbiristanlığındakı vəziyyətlə bağlı yaydığı bəyanatında yer alıb.

Qeyd olunub ki, fotoşəkillərdə dağıdılmış və aşmış məzar daşları olan qəbirlər görünüb.

Bundan başqa qohumlar tərəfindən əkilən ağaclar, kollar və hasar sındırılıb.

"Baş verənlər sadəcə olaraq hiddət doğurur. Tolerant multikultural Azərbaycan cəmiyyətində bu, ictimaiyyətdə və mediada hiddət doğurdu. Azərbaycanın rus icması törədilmiş vandalizm aktını qətiyyətlə pisləyir və hadisəyə göstərilən diqqətə görə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya dərin minnətdarlığını bildirir. Hörmətli Mehriban xanım Əliyevanın tapşırığı ilə Azərbaycan Prezidentinin köməkçisi - Ərazi-təşkilati məsələlər şöbəsinin müdiri Zeynal Nağdəliyevin iştirakı ilə artıq Sabunçu rayonunun Balaxanı kəndindəki rus qəbiristanlığına baxış keçirilib. Bütün məzar daşlarının yenidən bərpa olunacağı vurğulanıb", - deyə qeyd olunub.

Bildirilib ki, baş prokurorun birinci müavini Elçin Məmmədov Rus İcmasının sədri, deputat Mixail Zabelinlə əlaqə saxlayıb və qəbiristanlıqda baş verən vandalizm aktları ilə bağlı bütün hadisələrin araşdırılması üçün istintaq qrupunun yaradılması barədə göstərişin verildiyini bildirib.

# Azərbaycan və İsrail arasında 4 sənəd imzalanıb

## İki ölkə arasında ticarət dövriyyəsində qeyri-neft məhsullarının payı yüksəlir



**Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın 3-cü iclasında 4 sənəd imzalanıb. İclasda çıxış edən iqtisadiyyat naziri, Birgə Komissiyanın həmsədri Mikayıl Cabbarov dostluq və qarşılıqlı etimada əsaslanan Azərbaycan-İsrail əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişafını vurğulayıb.**

Bildirilib ki, Azərbaycan və İsrail arasında ticarət dövriyyəsində qeyri-neft məhsullarının payı yüksəlir: "Bununla belə, biz ticarət əlaqələrimizi şaxələndirməliyik, çünki Azərbaycanın qeyri-neft məhsullarının İsrail bazarına ixracı üçün hələ də istifadə olunmamış böyük potensial var".

M.Cabbarov qeyd edib ki, investisiya, innovasiyalar, informasiya, kənd təsərrüfatı, ekologiya, qida, su, enerji texnologiyaları, əczaçılıq və biotexnologiya, ərzaq təhlükəsizliyi, kibertəhlükəsizlik, turizm, kiçik və orta sahibkarlıq və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər var və bu potensialın reallaşdırılması üçün özəl sektor fəallığını artırmalıdır: "Bu kontekstdə, biznes dairələri arasında keçirilən işgüzar tədbirlər dialoqun genişlənməsinə əlavə imkanlar yaradır. Azərbaycan ölkələrimiz arasında müasir texnologiyaların transferi sahəsində əməkdaşlıqda maraqlıdır və aidiyyəti qurumlar arasında tərəfdaşlıq birgə təşəbbüslərin reallaşdırılmasına töhfə verə bilər".

İqtisadiyyat naziri Azərbaycanda əldə olunan iqtisadi nailiyyətlər barədə də məlumat verib. O, investorlar üçün yaradılan imkanları diqqətə çatdırıb. İsrail şirkətlərini Ələt Azad İqtisadi Zonasının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından yararlanmağa, birgə layihələrin həyata keçirilməsinə dəvət edib.

İsrailin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Kohen xalqlarımız arasında səmimi dostluq münasibətlərini vurğulayaraq, İsraildə Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının əlaqələrimizi yeni inkişaf mərhələsinə yüksəltdiyini qeyd edib. Kohen iki ölkə arasında müxtəlif sahələr üzrə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb. Özəl bölmənin tərəfdaşlığın inkişafı potensialını reallığa çevirdiyini diqqətə çatdırıb. İqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışlara toxunan ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Azərbaycanda ekologiya, ətraf mühitin mühafizəsi üzrə həyata keçirilən layihələr barədə məlumat verib, bu sahələrdə İsraillə əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd edib. İclasda müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

**İsmayıl**

# Qərbin bu maxinasiyadan əvvəldən xəbəri var idi

## Ermənistan Rusiyaya Qərbin sanksiyalarından yayınmaqda köməklik göstərir



**Ermənistan Rusiyaya Qərbin sanksiyalarından yayınmaqda köməklik göstərən ölkələr sırasındadır.**

Bu, "Nyu-York Tayms" qəzetindəki məqalədə deyilib. ABŞ və Aİ-nin yüksəkvəzifəli məmurlarına istinad edən müəllifin sözlərinə görə, Ermənistandan Rusiyaya silah istehsalında həlledici əhəmiyyət daşıyan çiplərin tədarükü artıb. Qeyd olunub ki, 2022-ci ildə Ermənistan ABŞ-dən 2021-ci illə müqayisədə 515 faiz daha çox, Aİ-dən isə 212 faiz daha çox çip və prosessor idxal edib. Sonra isə 97 faiz eyni məhsulları Rusiyaya ixrac edib. Beləliklə, aydın olub ki, Qərbin sanksiyalarından yayınaraq malların Rusiya və ya Belarusiyaya qanunsuz yönləndirilməsində Ermənistandan istifadə olunur. Sənədə əsasən, daha çox yayılmış taktikalardan biri məhdudiyyətlərdən qaçmaq üçün kənar vasitəçi və ya məntəqələrdən istifadədir.

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyan ölkəsinin iqtisadiyyatındakı cüzi artımı inkişafla əlaqələndirib. Hətta Azərbaycanın bunu gözü götürmədiyini iddia etmiş, sərhəddəki gərginliyin bununla əlaqəli olduğunu demişdi:** "Rusiyanın mallarını öz adına alıb-satmaq nə vaxtdan "inkişaf" olub?. Qərbin bu maxinasiyadan əvvəldən xəbəri var idi və bu, bir sıra Qərb analitiklərinin çıxışlarında vurğulanırdı. Onlar Ermənistana, Gürcüstana xəbərdarlıq edirdilər ki, bundan imtina etsinlər. Qərbin Ermənistana hansısa ciddi təzyiq edəcəyinə ehtimal vermirəm. Lakin müxtəlif kanallarla bunun qarşısının alınması üçün addımların atılacağı şübhəsizdir. Qərb bu məqsədlə Ermənistana çip və Rusiyaya strateji məhsul satan firmalara sanksiyalar qoyacağını elan edə bilər. Bu, sanksiyalardan əlavə yollarla yayınanların qarşısını alar. Amerika bunu Çin şirkətlərinə tətbiq edib. İrəvan fürsətdən yararlanıb mənfəət əldə etmək istəyir. Görünən odur ki, yaxşı da pul qazanır. Buna görədir ki, Paşinyan Hindistandan silah almaqdan dəm vurur. Ancaq Qərb Ermənistanın hərəkətlərinə imkan verməyəcək".

**İsmayıl Qocayev**

# Paşinyan sülh müqaviləsinə yaxınlaşdı

## Baş nazirin bəyanatları adətən ziddiyyət təşkil etsə də, sonuncu açıqlamalarında etiraflar çoxdur



"Ermənistan dövləti və xalqı ortaya müstəqil siyasi iradə qoymalıdır. İrəvan hökuməti xarici güclərin təsirindən çıxaraq rəsmi Bakı ilə birbaşa təmaslar qurmalıdır"

**Ermənistan Baş naziri Nikol Paşinyan ölkəsi və region üçün sülh formulunu açıqlayıb. Baş nazir qeyd edib ki, Ermənistan Azərbaycanla sülh müqaviləsinin ən qısa müddətdə imzalanması üçün səmimiyyətlə çalışır. Onun sözlərinə görə, sülh rəsmi İrəvanın qonşu dövlətlərə ərazi iddiasının olmadığını açıqlamasından sonra baş tuta bilər.**

Paşinyan Ermənistanın bütün qonşuları ilə normal münasibət qurmaq istədiyini deyib: "Əgər Gürcüstan və İranla münasibətlərdə mövzu əməkdaşlığın dərinləşdirilməsidirsə, Türkiyə və Azərbaycanla münasibətlərdə söhbət təmasların normallaşmasından gedir". Baş nazir əlavə edib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tam formada tanıyır: "Azərbaycanla sülh müqaviləsinin imzalanması üçün beynəlxalq təminatlara ehtiyac var. Sülh sazişinin həyata keçirilməsinə zəmanət verən beynəlxalq mexanizmlərin yaradılması son dərəcə vacibdir. Əks halda, imzalanan gündən bir gün sonra müharibə başlaya və ya yeni eskalasiya baş verə bilər". Paşinyanın qənaətincə, bölgədə sülhün təmin olunması üçün kommunikasiyaların açılması vacibdir: "Bu, tərəflərin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır".

**Ermənistan baş nazirinin sonuncu bəyanatlarını "Şərq"ə dəyərləndirən Ankara Universitetinin professoru, politoloq Toğrul İsmayıl deyib ki, Nikol Paşinyan özü də anlayır ki, Azərbaycanla sülh müqaviləsi imzalamaqdan, qonşularla əməkdaşlıq etməkdən başqa çarəsi yoxdur. Professor bildirib ki, müharibədən məğlub çıxmış Ermənistan hələ də özünə gələ bilməyib, əksinə, siyasi-iqtisadi baxımdan daha da dibə batıb:** "Ölkə iqtisadi böhran içindədir, siyasi xaos yaşanır. Paşinyanın özünün vəziyyəti də yaxşı deyil. Şübhəsiz ki, baş nazirin açıqlamaları müxtəlif dairələrə mesaj xarakteri daşıyır. Adətən Paşinyanın bəyanatları bir-birinə uymasa da, ziddiyyət təşkil etsə də, sonuncu açıqlamalarında etiraflar çoxdur. Sülh müqaviləsinin imzalanması üçün Ermənistan dövləti və xalqı ortaya müstəqil siyasi iradə qoymalıdır. İrəvan hökuməti xarici güclərin təsirindən çıxaraq rəsmi Bakı ilə birbaşa təmaslar qurmalıdır. Paşinyan anlamalıdır ki, bizimlə sülh müqaviləsinin qarantı elə Azərbaycan özüdür, zəmanətçi Türkiyədir. Əlavə vasitəçilərə, kənar qarantorlara ehtiyac yoxdur. Çünki heç bir üçüncü ölkə Bakı və Ankaranın verdiyi təminatı verə bilməz. Aydındır ki, Paşinyanın "sülh üçün zəmanətçi" istəməsi başqa təhlükədən xəbər verir. Məqsəd kənar güclərin prosesə müdaxiləsinə imkan yaratmaqdır. Əslində bu da sülh prosesini yubatmaq, uzatmaq məqsədi daşıyır. Ancaq uzanan proses Ermənistanın lehinə deyil".

**İsmayıl Qocayev**



Ermənistan və Rusiyanın köntöy müdaxilələrinə susqun yanaşacağıq. Müraciətlərimiz bir yerə qədər ola bilər. Ölkə prezidenti və digər siyasilər tərəfindən də birmənalı ifadə olunub ki, Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımıza hansısa xüsusi imtiyaz verilməyəcək. Amma onların əlindən hüquqları da alınmayacaq. Bütün Azərbaycan əhalisi hansı hüquqa malikdirsə, ermənilər də eynisini əldə edəcək. Təbii ki, vətəndaşların dövlət qarşısında məsuliyyəti də var. Vətəndaşlığımızı qəbul edən ermənilər ölkə konstitusiyasını qeyd-şərtsiz qəbul etməlidirlər".

**F.Quliyev vurğulayıb ki, Ermənistandan Qarabağa gələnlər, orada separatçılıqla məşğul olanlar mütləq**

# Hələ ki Qarabağ ermənilərini sülhə çağırırıq

## Zamanı gələndə Azərbaycan ərazisi separatçılardan, qanunsuz silahlı dəstələrdən tamamilə təmizlənəcək

**Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi diqqətçəkən məqamlarla yadda qaldı. Dövlət başçısı Qarabağdakı separatçılara növbəti dəfə sərt şəkildə xəbərdarlıq etdi. Ölkə rəhbəri vurğuladı ki, Azərbaycan dövləti separatçı ünsürlərin nazı ilə çox oynamayacaq:**

"Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, - biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim, nə parlament sədri adlandırır, - bu təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz". Dövlət başçısı növbəti dəfə bəyan etdi ki, rəsmi Bakı Xankəndidə heç bir qondarma qurum, rejim, dövlət tanımır və bundan sonra da tanımayacaq. Prezidentin çıxışından həm də bu qənaətə gəlmək olar ki, Bakı Xankəndi ilə rəsmi və qeyri-rəsmi təmaslar qurub, lakin bu təmaslar sırf prosesin sülh yolu ilə reinteqrasiya prosesi çərçivəsində tənzimlənməsi mahiyyəti daşıyıb: "Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş ermənilər də rahat buraxacaqlar. Mən əminəm ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır".

Bakı Xankəndidəki erməni icması və konkret şəxslər ilə təmasdadır və müsbət reaksiyalar da alır. Lakin separatçı rejimin sərgilədiyi destruktiv mövqe proseslərin sülh yolu ilə həllinə mane olur. Bu mənada Prezidentin çıxışındakı sərt ton Bakının yumşaq güc siyasətinin hər an sərtləşə biləcəyi, rejimin sıradan çıxması üçün antiterror əməliyyatlarına başlana biləcəyi ehtimallarını yüksəldir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev "Şərq"ə açıqlamasında bildirib ki, partiya rəhbəri kimi həm müharibə dövründə, həm də sonrakı mərhələdə Prezidentin mövqeyini müdafiə edib. Onun sözlərinə görə, dövlət başçısının məsələlərə yanaşması milli iradəni tam ifadə edir:** "Azərbaycanın suverenliyi şəksizdir və bütün ərazilərə şamil olunur. Qarabağ iqtisadi zonasında baş verən son hadisələrə dözümlə yanaşa bilmərik. 10 minə yaxın erməni əsgərinin hələ də Azərbaycan ərazisində qalması dözülməzdir. İndiyədək orada yaşayan erməni əsilli dinc vətəndaşlarımızın xətrinə daha çox yumşaq gücdən istifadə etmişik. Onların Azərbaycan konstitusiyasına əməl etməsi təklifini irəli sürmüşük, görüşlər istəmişik. Amma bu, o anlama gəlmir ki, həm də separatçılığın davamına imkan verəcəyik, yaxud **cəzalandırılmalıdır:** "İki yol var, ya silahsursatı təhvil verib, dinc yolla torpaqlarımızı tərk etməlidirlər, ya da anti-terror əməliyyatı həyata keçirilməlidir. Dövlət başçısı xüsusi qeyd etdi ki, büdcəyə yenidən baxılacaq və 3 milyard manatadək vəsait əlavə olunacaq. Bu vəsaitin bir hissəsi azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə sərf olunacaq. Böyük hissəsi isə hərbi məsələlərə sərf olunacaq. Ölkə rəhbəri vurğuladı ki, Azərbaycan Ordusu ən güclü ordulardan birinə çevrilməlidir. Çünki Ermənistan tərəfindən ciddi şəkildə revanş çağırışları, eyni zamanda başqa ölkələrdən təhdidlər var. Təhdidlərin qarşısında dayanmaq üçün güclənməliyik. Yəni sülh və diplomatik yollarla yanaşı, həm də sərt addımlara hazır olduğumuzu bəyan edirik. Bu siyasət təqdir olunur. Başqa yolumuz yoxdur. Ermənistan yolu azmış iki əsgərimizi girov götürüb, onlara işgəncə verib. İrəvan unudur ki, Azərbaycana azdırılan 10 min erməni əsgərini tərk-silah etməyə, həbsə atmağa, məhv etməyə tam haqqımız var. Hələki sülhə çağırırıq, ehtiyac olan təqdirdə Azərbaycan ərazisi separatçılardan, qanunsuz silahlı dəstələrdən tamamilə təmizlənəcək və anti-terror əməliyyatları başlayacaq".

**İsmayıl Qocayev**

# Dünya niyə susur?

## "Ermənistan Rusiyanı sanksiyalardan yayındırır, bu, cinayətdir"



**"The New York Times" qəzeti martın 24-də ABŞ və Aİ-nin yüksəkvəzifəli vergi və ticarət rəsmilərinin görüşündə səslənən faktları açıqlayıb. Məlumatlara görə, Ermənistan vasitəsilə Rusiyaya satılan çiplərin və digər elektron komponentlərin sayında kəskin artım müşahidə olunur.**

Qeyd edək ki, söhbət Rusiyanın Ukraynanı vurduğu raketlər də daxil olmaqla, silahların inkişafı üçün kritik hesab olunan yüksək həssas kateqoriyalı çiplərin və digər elektron cihazların kütləvi satışından gedir.

ABŞ Sənaye və Təhlükəsizlik Bürosunun sənədinə görə, 2022-ci ildə Ermənistan 2021-ci ilə nisbətən ABŞ-dən 515 faiz, Avropa İttifaqından isə 212 faiz çox çip və prosessor idxal edib. Sənəddə deyilir ki, daha sonra Ermənistan həmin məhsulların 97 faizini Rusiyaya ixrac edib.

Bundan əvvəl 2022-ci ildə Vyetnamdan Ermənistana ixracatın 380 faiz, Yaponiyadan 252 faiz, Qazaxıstandan 201 faiz, Hindistandan 190 faiz, Fillipindən 181 faiz, Cənubi Koreyadan 102 faiz artdığı məlum olub.

Xatırladaq ki, 2022-ci ildə Aİ-dən Ermənistana ixrac 70 faiz artıb.

Bütün bu faktlar isə Ermənistanın Rusiyanın sanksiyalardan yayınmasında əsas mərkəzlərdən biri olduğunu sübut edir.

Məsələyə münasibət bildirən STM-nin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə şərhçi Əziz Əlibəyli "Şərq"ə vurğulayıb ki, bu hesabatlardan kənarda dövlətlərin qeyri-qanuni şəkildə silahlanmanı qəbul etməsi proqramı birbaşa cinayətdir: "Söhbət ABŞ-dən gedirsə, rəsmi Vaşinqtonun Azərbaycanla bağlı siyasəti nə idi ki? Hələ 1990-cı illərdə Azərbaycanın əraziləri işğal olunurdu, onlar tərəfindən isə bizim əleyhimizə 907-ci silah satmama ilə bağlı qanun layihəsi qəbul olundu. Yəni məsələnin mahiyyəti budur".

Ermənistana silah verilməsinə gəlincə, ekspert diqqətə çatdırıb ki, dünyanın bütün ölkələrindən onlara silah tədarük olunur: "İndiki məqamda üçüncü ölkələr anlayışı daha çox istifadə edilir. Məsələn, Azərbaycan tərəfi Serbiya ilə müttəfiq idi və açıq şəkildə mövqe bildirdi ki, Ermənistana silah satılmasın. Lakin onların müharibə dönəmində Ermənistana silah satmaq faktı aşkar olundu. Yəni bu faktlar çoxdur və cinayət tərkiblidir. Ermənistanın da etdiyi budur. Ümumiyyətlə, rəsmi İrəvana qarşı belə məqamlarla təzyiqlərin olduğunu görmürük. Buna nail olmaq üçün beynəlxalq aləmdə bir sıra stereotipləri qırmaq lazımdır. Erməni lobbisinin qabağına çıxa biləcək güc yoxdur. Senatorların böyük bir hissəsi pul qarşılığında erməni lobbisinə xidmət edir. Ona görə də onlara təzyiq edəcək və qarşılarını alacaq heç bir güc yoxdur".

**Nihat**

# Azərbaycanla İsrail arasındakı münasibətlərin strateji əsasları yenilənir

## Bakı Təl-Əvivlə əlaqələrdə həm ikitərəfli, həm də Böyük Britaniya-İsrail xəttindəki maraqları önə çıxarır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da İsrail Dövlətinin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Koheni qəbul edib.**

Azərbaycan-İsrail münasibətlərini yüksək qiymətləndirən dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin mövcud olduğunu bildirib. Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin açılmasını əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirib və bu əlaqələrin dostluq, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslandığını vurğulayıb. Dövlətimizin başçısı əməkdaşlığımızın gündəliyinin genişləndiyini deyərək, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyətini xüsusi qeyd edib. O bunun əlaqələrin şaxələnməsi işinə töhfə verə biləcəyinə ümidvarlığını bildirib.

Azərbaycanın İsraildə səfirliyinin açılmasını yüksək qiymətləndirən İsrailin xarici işlər naziri səfirliyin açılmasına görə təşəkkürünü ifadə edib. Kohen bunun ölkələrimiz arasında strateji əlaqələr qurulması işinə töhfə verəcəyinə ümidvarlığını söyləyib və İsrail ilə Azərbaycan arasındakı əlaqələrin strateji xarakter daşıdığını deyib. Qonaq dostluq münasibətlərimizin təkcə dövlətlərimiz arasında deyil, xalqlarımız arasında da mövcud olduğunu bildirib.

Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etdiyini vurğulayan İsrailin xarici işlər naziri turizm sahəsində əlaqələrimizə toxunub. Nazir ölkəsindən Azərbaycana gələn turistlərin sayının artmaqda olduğunu qeyd edib. O, ölkələrimiz arasında ticarət dövriyyəsinin artım tempinin müşahidə olunduğunu deyərək, bunun daha da artırılması üçün geniş imkanların olduğunu bildirib.

**Eli Kohenin səfərini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov qeyd edib ki, Azərbaycanla İsrail arasındakı münasibətlərin strateji əsasları yenilənir:**

"İsrail Azərbaycanla bağlı siyasətini "Ərəb açılımı" kontekstində diqqətdə saxlayır. Bakı isə Təl-Əvivlə əlaqələrdə həm ikitərəfli, həm də Böyük Britaniya-İsrail xəttindəki maraqları önə çıxarır. Təkcə bu deyil, Azərbaycan-Türkiyə-İsrail üçbucağı da var. Lakin bu, bilinəndir. Bununla yanaşı, Azərbaycan-İsrail-ABŞ üçtərəfli gizli əlaqələrinin olduğunu da görə bilərik. Strateji mayanın təzələnməsi ilə pərdə arxasındakı rollar yenilənir və mən konseptual olaraq səhnənin görünməyən tərəfindəki məqamları belə qiymətləndirirəm. Məncə, ortada çox incə bir nüans var. Həmçinin İsrailin ərəb dünyası ilə əlaqələrində yeni səhifələr vərəqlənməsi fonunda İranın Azərbaycan əleyhinə hədə tonu diqqət çəkir. Çünki İsrailin "ərəb açılımında" Azərbaycanın da rolu mövcuddur. Ona görə ki, Bakı islam coğrafiyasında fərqli bir ənənəyə və sabitliyə malik olan adadır".

**Analitikin sözlərinə görə, İranın paralel olaraq ərəb dünyasına açılması İsrailə strateji cavabdır və Azərbaycan Tehran üçün bu məsələdə əngəldir:**

"Çünki Azərbaycan Qarabağda Ermənistan üzərində həlledici qələbə qazandıqdan sonra ideoloji iplərini Yaxın Şərq regionunda da göstərir. Yəni İranın ideoloji əsaslarını tərpədir və bu işdə ona əsas dəstək İsrail, Böyük Britaniya və Türkiyədən gəlir. Əli Kohenin qovluğundakı məxfilik qrifi daşıyan sənədlərdə bu məsələlərin öz yerini aldığını düşünürəm. İkinci bir yandan, İsrailin Cənubi Qafqazdakı siyasi profili yüksəyə qalxır və bu, cənub qonşumuzu narahat edir.

Çünki İsrail regional təhlükəsizlik perspektivində Tehranın payını alaraq öz aktivinə yazdıra bilər. Ona görə də Azərbaycan-İsrail əlaqələrinin sxemini Yaxın Şərq və Cənubi Qafqaz marşrutundakı əlaqələndirmələrlə izah etməkdə fayda var.

Bu mənada Yaxın Şərqdə, xüsusilə Suriya cəbhəsində baş verən hadisələri diqqətlə izləməliyik, çünki bəzi qərarlar oradakı nəticələrə görə verilir".

**Nihat**

# "Həqiqətən də, İranda qız uşaqları zəhərlənir"

## Məhsa Mehdili: "Bu, onların ailələri arasında da qorxu toxumu yayır"

**"İran hökuməti 20 minə yaxın məktəbli qızın zəhərləndiyini açıqlamır".**

**Bunu "GünAzTV"-nin təsisçisi Əhməd Obalı jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, İranda qızların təhsil aldığı məktəblərə qarşı ayrı-seçkilik hökumət daxilindəki bəzi şəxslər tərəfindən edilir:**

"Həmin şəxslər də İran Prezidenti İbrahim Rəisiyə yaxındırlar. Çünki sıravi şəxslər bu qədər zəhəri əldə edə bilməz. Onlar xalqdan qisas almaq istəyirlər. Zəhərlənənlərin sayı 20 minə yaxın olsa da, hökumət bunu etiraf etmək istəmir. Təkcə ilk zəhərlənmə hadisəsində 7 mindən çox xanım zəhərlənib. Bu hadisə yenə davam edib".

Zəhərlənənlərin sayı barədə dəqiq məlumatı olmadığını deyən Türkiyədə yaşayan Güney azərbaycanlı siyasi şərhçi Məhsa Mehdili "Şərq"ə bildirib ki, həqiqətən də, İranda qız uşaqları zəhərlənir: "Həmin uşaqlardan bəziləri ilə müsahibələr belə aparılıb. Onlar söyləyiblər ki, nə isə təneffüs etdik, sonra başımız fırlanıb ürəyimiz bulandı və yerə yıxıldıq. Lakin ən vacibi zəhərlənmələrin arxasındakı məqamdır. Çünki hadisə böyük bir təhlükəsizlik məsələsidir. Hətta



uşaqlar getdikləri məktəblərdə zəhərlənmək qorxusu ilə rahat nəfəs ala bilmirlər. Bu, onların ailələri arasında da qorxu toxumu yayır.

Onlar qız uşaqlarını rahatlıqla təhsil almağa göndərməyə çəkinirlər. Digər tərəfdən, bu, hökumət tərəfindən törədilsə də, törədilməsə də, əsas məsuliyyət dövlətindir. Çünki İran hökuməti bu günə qədər öhdəliklərini yerinə yetirməyib. Düzdür, bu günə qədər müəyyən açıqlamalar olub. Lakin hamısı sözdə qalıb".

**Xanım analitik qeyd edib ki, hadisənin arxasındakı qüvvələr onsuz da boynuna almayacaq:** "Bu zəhərlənmələr böyük bir təhlükəsizlik qayğısıdır. İnsanlar artıq uşaqlarını məktəbə göndərməyə belə çəkinirlər. Ümumiyyətlə, hadisə qızların təhsil almasının və müasirləşməsinin qarşısını almaq üçün törədilib. Onlar belə edərək qız uşaqlarının təhsil almasını məhdudlaşdırmağa çalışırlar. Burda əsas səbəbkar isə məsuliyyətsiz İran hakimiyyətidir".

**Nihat Müzəffər**

# Makron ABŞ-nin Avropadakı hegemonluğunu qəbul etmir

## O, Pekindən qayıtdıqdan sonra Çini deyil, ABŞ-nin siyasətini tənqid etməyə başlayıb

**"Fransa Prezidenti Emmanuel Makronun bir müddət əvvəl Çinə səfəri ABŞ-nin siyasi və ekspert dairələrində müzakirə predmeti olaraq qalır. Vaşinqton bu səfərin Qərbin xeyrinə olmadığı və fayda vermədiyi qənaətindədir".**

*Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitikin sözlərinə görə, Vaşinqtonda hesab edirlər ki, Fransa Prezidenti Çinə güzəştə getməyə hazırdır: "Emmanuel Makron Çinə səfərini yekunlaşdırdıqdan sonra o, Tayvan mövzusunda mübahisəli müsahibə verərək ABŞ-nin müttəfiqi olmağın "vassal" olmaq anlamına gəlmədiyini söyləyib:* "Müttəfiq olmaq vassal olmaq demək deyil... bu, bizim özümüz haqqında düşünmək haqqımızın olmadığı anlamına gəlmir". Emmanuel Makron həmçinin deyib ki, "Fransa Tayvanda mövcud status-kvonun tərəfdarıdır" və "vəziyyətin sülh yolu ilə həllinə" çalışır. Makron bununla demək istəyib ki, Fransa



və digər Avropa ölkələri ABŞ-nin Tayvan məsələsində Çinlə qarşıdurmanın tərəfdarı olmamalıdırlar. Halbuki Makronun Pekinə səfərinin məqsədi Çini Rusiyaya dəstəkdən imtinaya dəvət etmək olmalı idi. Makron isə Pekindən geri döndükdən sonra Ukrayna əvəzinə Tayvandan danışıb. Tsi Cinpin Makronla geniş fikir mübadiləsi apasa da, Ukrayna məsələsində əvvəlki mövqeyindən geri çəkilməyib. Maraqlıdır ki, Emmanuel Makron Pekindən qayıtdıqdan sonra Çini deyil, ABŞ-nin siyasətini tənqid etməyə başlayıb. Makron Avropanın ABŞ ilə bərabərhüquqlu münasibətlərin qurulmasının tərəfdarı kimi çıxış edib. Bu o deməkdir ki, Makron ABŞ-nin Avropadakı hegemonluğunu qəbul etmir. Makron Avropanın güc mərkəzinə çevrilməsinin tərəfdarıdır. Fransa Prezidenti hesab edir ki, bunun üçün zaman yetişib".

*Ekspert bildirib ki, Makronun son açıqlamaları ABŞ-nin siyasi dairələrində böyük narazılıq yaradıb:* "ABŞ-nin keçmiş Prezidenti Donald Tramp Makronu aşağılamaqdan çəkinməyib. Respublikaçı senator Marko Rubio isə Makrona məsləhət görüb ki, Avropa ABŞ-nin dəstəyi olmadan Ukraynanı dəstəkləsin.

Fransanın keçmiş liderləri də Avropanın ABŞ-dan uzaqlaşmasını dəstəkləyirdilər. Ancaq heç bir nəticə hasil etmirdilər. Çünki İkinci Dünya müharibəsindən sonra Avropanın yenidən formalaşmasında, iqtisadiyyatının bərpasında və təhlükəsizlik sisteminin qurulmasında ABŞ-nin müstəsna rolu olub və Vaşinqton bu rolundan imtina etmək istəmir. Digər tərəfdən, Avropa ölkələri Amerikasız keçinə bilmirlər. Məsələn, 1990-cı illərin əvvəllərində keçmiş Yuqoslaviyada müharibə başlayanda Avropa ölkələri aciz qaldılar, məsələyə ABŞ qarışdıqdan sonra vəziyyət sabitləşdi. Digər tərəfdən, Avropa ölkələrinin bir qismi Fransa Prezidentinin təklifləri ilə razı deyillər. Polşa ABŞ ilə strateji tərəfdaşlıqdan imtina etməyi planlaşdırmır".

**İsmayıl**



# ABŞ və İsrail nümayəndələri Xudafərin körpüsündə...

## "Biz bura Azərbaycanın İranla bağlı üzləşdiyi problemləri göstərmək üçün gəlmişik"

**ABŞ-də fəaliyyət göstərən Amerika-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qringerin rəhbərlik etdiyi nümayəndə heyəti işğaldan azad edilmiş Cəbrayıl rayonuna səfər edib. Nümayəndə heyəti Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüsündə olub. Qonaqlara tarixi abidə barədə məlumat verilib.**



ABŞ-də fəaliyyət göstərən "Yentas in the City" podkast şirkətinin rəhbəri Ester Eti El-Kiss Mizrahi bildirib ki, onlar bura ABŞ və İsraildən olan oxucuları üçün Azərbaycanın İranla bağlı üzləşdiyi problemləri göstərmək üçün gəliblər: "Bura gəlmək çox vacib idi". Onun sözlərinə görə, Azərbaycan haqqında çoxlu yalan var ki, onlar bunu dəyişmək istəyirlər: "Mən jurnalist olaraq İranla bağlı, habelə Şuşada mövcud vəziyyəti göstərmək istəyirəm. Biz dünyanın Azərbaycan haqqında yanlış təsvirini dəyişmək istəyirik. Keçən axşam biz xristian, müsəlman və yəhudilər ilə birlikdə kulinariya məşğələsinə qatıldıq. Düşünmürəm ki, dünyanın bir başqa ölkəsində belə bir şey mümkündür. Bizdən əvvəl, 4 ay öncə gələn nümayəndə heyəti 2020-ci ilin müharibəsində görmə qabiliyyətini itirən Arif adlı əsgər və israilli həkimlərin ona yeni göz transplantasiya etməsi haqqında film çəkmişdi. Biz də "Göz qırpımı" adlı film çəkəcəyik. Biz burada olmaqdan çox xoşbəxtik. Daha çox nümayəndə heyətinin buraya gəlmək istədiyini bilirik. Dünyanın Azərbaycanın nə qədər gözəl ölkə olduğunu bilməsi çox vacibdir".

Amerika-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qringeri deyib ki, Azərbaycana qarşı böyük ədalətsizliklər edilir. Qringer bildirib ki, ABŞ-də təsis etdiyi Amerika Azərbaycan Mədəniyyət Fondunun məqsədi bu ədalətsizliklərin aradan qaldırılmasına xidmət etmək, həmçinin Azərbaycanın mədəni irsini bütün dünyada tanıtmaqdır: "Artıq 8-ci və ya 10-cu dəfədir ki, Azərbaycandayam. Bir yəhudi kimi İran sərhədində olmaq mənim üçün çox önəmlidir. Mənim Azərbaycana böyük rəğbətim var. Düşünürəm ki, ölkəyə qarşı ədalətsizliklər edilir və biz bunu düzəltməliyik, mənim niyyətim də 30 illik ədalətsizliyi düzəltməkdir. Mən tərəqqi görmək istəyirəm. Mən Azərbaycanın güclü siyasətinə, torpaqlarla və ərazi bütövlüyü ilə bağlı qətiyyətinə rəğbət bəsləyirəm. Düşünürəm ki, regiona nəhayət sülh gələcək və bundan hər kəs bəhrələnəcək".

Nümayəndə heyətinin Azərbaycana səfəri aprelin 23-dək davam edəcək. Nümayəndə heyətinin Xudafərin körpüsünü ziyarət etdikdən sonra Şuşaya səfəri planlaşdırılır. Səfər Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə təşkil olunub.

**İsmayıl**

# Nəyin bahasına olursa-olsun, əsgərlərimiz əsirlikdən xilas edilməlidir

## İlk fürsətdə namərd düşməndən bu vəhşiliyin qisası alınmalıdır








**Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri ermənilər tərəfindən girov götürülmüş iki əsgərimizə İrəvanda baş çəkiblər. Nümayəndə hər iki əsgərimizlə - Aşqin Bəbirov və Hüseyn Axundovla görüşüb. Əsirlərə ailələri ilə Qızıl Xaç Məktubu vasitəsilə əlaqə yaratmaq imkanı verilib.**

Lakin prosedurlara uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız əlaqə saxlayan tərəflə paylaşılır. Qeyd edək ki, aprelin 10-da əlverişsiz hava şəraitində yolu azaraq Ermənistana keçmiş iki əsgərimiz ermənilər tərəfindən saxlanılıb. Əsgərlərimizin dəhşətli işgəncələrə məruz qaldığını əks etdirən videogörüntülər də yayılıb. Girovlarımızla bağlı uydurma cinayət işi də açılıb. Əsgərlərimiz "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunaraq həbs ediliblər. Hüseyn Axundov "Zəngəzur mis-molibden kombinatının gözətçisini qətlə yetirməkdə" də təqsirləndirilir.

**Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə deyib ki, ermənilər düşmənçiliyi müharibə qanunları və əxlaq çərçivəsində aparmırlar. Politoloq bildirib ki, ermənilərin namərdliyi və fürsətcilliyi bütün dünyaya bəllidir:** "Əsgərlərimiz əsir düşərkən silahsız olublar, bu, onlara mülki adam kimi davranmağa əsas verir. Belə hallarda Azərbaycan dəfələrlə olub ki, əsiri öz dövlətinə qaytarıb. Ermənistan isə özünü çox alçaqcasına aparır, silahsız gənc uşaqlara qarşı amansız işgəncə tətbiq edir. Mülki erməni əhalisi əsirlərə divan tutmaq üçün növbəyə dayanır. Bu, bir daha onu sübut edir ki, təkcə rəsmi qurumlarla deyil, bütövlükdə xəstə zehniyyətə malik bir toplumla qonşuyuq. Əsgərimizin təpikləndiyi videomateriala ürək ağrımadan baxmaq mümkün deyil".

*H.Rüstəmov vurğulayıb ki, Azərbaycan iki əsgərimizi nəyin bahasına olursa-olsun, əsirlikdən xilas etməlidir:* "Eyni zamanda ilk fürsətdə namərd düşməndən bu vəhşiliyin qisası alınmalıdır. Bunu deyərkən təkcə hərbi zərbəni nəzərdə tutmuram. Ermənistana beynəlxalq səviyyədə layiq olduğu yeri göstərmək və informasiya cəbhəsində maksimum küncə sıxışdırmaq lazımdır".

**İsmayıl Qocayev**

# Hamısı qızlardır

## 4 abituriyent ən yüksək balı topladı

**Məlum olduğu kimi, martın 12-də keçirilən buraxılış imtahanın nəticələri açıqlanıb.**

Qafqazinfo xəbər verir ki, imtahanda 297.5 bal toplamaqla yüksək nəticə göstərən 4 abituriyent var:

Abışova Fidan Yusif qızı - Bakı şəhər Nəsimi rayon Texniki-humanitar liseyi;

Cəfərzadə Taliə Cavid qızı - Bakı şəhər Nəsimi rayon Texniki-humanitar liseyi;

Mürşüdlü Nəzrin Elxan qızı - Səbail rayon 160 nömrəli Klassik gimnaziya;

Quliyeva Ləman Sənan qızı - Sabunçu rayon 169 nömrəli orta məktəb.



Texniki-humanitar liseyin tələbəsi Taliə Cəfərzadə saytımıza açıqlamasında həkim olmaq istədiyini bildirib: "Bu 3 fəndən yüksək nəticəni müəlimlərimin sayəsində qazanmışam. Azərbaycan Tibb Universitetinə qəbul olmaq istəyirəm, arzum həkim olmaqdır".

Nəsimi rayon Texniki-humanitar liseyin məzunu Fidan Abışova isə hansı ixtisası seçəcəyini hələ müəyyənləşdirməyib.

Səbail rayon 160 nömrəli Klassik gimnaziyanın məzunu Nəzrin Mürşüdlü isə ayrıca müəllim yanına getmədiyini, məktəbdə hazırlaşdığını deyir: "Gələcəkdə sahə mühəndisliyi fakültəsində təhsil almaq istəyirəm. Amma hələ hansı universiteti seçməyimlə bağlı qərar verməmişəm".

*Qeyd edək ki, bu buraxılış imtahanında 300 ballıq maksimum nəticə qeydə alınmayıb.*

# Bu günlərdə məktub, ya da zəng olacaq

## Erməni girovluğunda olan əsgərimizin anası "Şərq"ə danışdı

**Naxçıvan istiqamətində yolu azaraq Ermənistana keçən və əsir götürülən Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundovdan xəbər var.**




Onun hazırkı vəziyyəti ilə bağlı "Şərq"ə anası Şəlalə Axundova məlumat verib.

O bildirib ki, oğlu ilə hələ əlaqə yarada bilməyib: "Araşdırma aparılır. Qızıl Aypara Cəmiyyəti bu gün uşaqlarla bağlı məlumat veriblər. Artıq onları nəzarətə götürüblər, bu günlərdə məktub, ya da zəng olacaq. Bizi əlaqələndirib, danışdıracaqlar. Nə mən ona məktub yollamışam, nə də uşaq mənə. Bildirilib ki, hazırda qorunurlar, uşaqlara işgəncə verilməsi dayandırılıb. Cənab Prezidentimiz dedi ki, qaytarılması 5-10 gün, yaxud da 1 ay da çəkə bilər.

Bu işlərin üzərində həm Cənab Prezidentimiz, həm də Ombudsman çalışır ki, iki əsgəri gətirsinlər".

**Samirə Ərəblinskaya**

# Bakıda bütün köhnə binalar söküləcək

## Qədimi binalarda isə bərkitmə və möhkəmləndirmə işləri aparılacaq

**Dünən AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində qardaş Türkiyə Respublikasının zəlzələ bölgəsində azərbaycanlı mütəxəssislər tərəfindən aparılan tədqiqat işləri ilə bağlı mətbuat konfransı keçirilib.**



RSXM-nin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli bildirib ki, mərkəz əməkdaşları Türkiyənin zəlzələ bölgəsində ən çox dağıntıya məruz qalan Kahramanmaraş şəhəri və zəlzələnin episentrində olan Pazarcık qəsəbəsində qravimetrik, maqnitometrik, mühəndisi-seysmik və makroseysmik tədqiqatlar aparıblar. Hazırda ərazidən toplanmış məlumatlar analiz edilir. Araşdırmalar başa çatdıqdan sonra alınmış nəticələr hesabat şəklində Türkiyə DİN-in Təbii Fəlakət və Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) Zəlzələ Departamentinə təqdim olunacaq.

*Baş direktor mətbuat konfransında həmçinin Qarabağda quraşdırılacaq seysmik stansiyalar haqqında da məlumat verib:* "Şuşadan sonra hansı ərazilərə əhali köçürüləcəksə, həmin rayonlarda da mərhələli şəkildə seysmik stansiyalar quraşdırılacaq. Çölün düzündə stansiya qura bilmərik. Əhali köçürüldükcə, stansiyalar da rayonlarda mərhələli şəkildə quraşdırılacaq. Ümumilikdə Qarabağ və Şərqi Zəngəzurda 10 kompleks stansiya quraşdırılacaq və seysmik, geofiziki, geodinamik tədqiqatlar aparılacaq".

Jurnalistləri maraqlandıran suallara aydınlıq gətirən Q.Yetirmişli deyib ki, Bakıdakı "Xruşşovka" binalar növbəli şəkildə söküləcək: "Bakıda bütün köhnə binalar söküləcək və hər birinin yerində yeniləri tikiləcək. Həmin binalar tikilən zaman hər birinə dayanaqlılıq üçün 30-40 il zəmanət verilib. Artıq onların sökülməsi üçün zaman yetişib. Bundan başqa, məndə qədimi binalarda isə bərkitmə və möhkəmləndirmə işləri aparılacağı barədə məlumatlar var".

**Şəymən**

# Xüsusi karantin rejimi iyulun 1-nə qədər uzadılıb

## Quru sərhədlərinin bağlı olmasına görə üçüncü ildir ki, insanlar qazanc yerlərini itirib

**Hökumət xüsusi karantin rejiminin müddətini yenə uzatdı. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.**



Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 1 iyul saat 06:00-dək uzadılıb. Qeyd edək ki, bundan əvvəlki qərara əsasən, xüsusi karantin rejiminin müddəti mayın 1-dək uzadılmışdı.

**İqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə açıqlamasında quru sərhədlərin açılmasının indiki reallıqda çox böyük sosial sifariş olduğunu deyib. İqtisadçının sözlərinə görə, hazırda quru sərhədlərin bağlı saxlanması üçün ciddi arqumentlər yoxdur. Əgər sərhədlərin qapalı qalmasının bizim bilmədiyimiz bir səbəbi varsa, bu, mütləq açıqlanmalıdır:** "Aydın məsələdir ki, səbəb pandemiya deyil. Quru sərhədlərin bağlı qalması Azərbaycan kimi ölkələrdə əhalinin həyat tərzinə, məişətinə ciddi problem yaradır. İnsanlar daha aşağı qiymətə daha keyfiyyətli mal və xidmətlərə çıxış əldə edirdilər. Bu imkanlar tamamilə əldən çıxıb. Quru sərhədlərinin bağlı olmasına görə üçüncü ildir ki, insanlar qazanc yerlərini itirib. Kasıb təbəqə doğmalarını görməyə gedə bilmir. Bu vəziyyət heç dövlətə, iqtisadiyyata da sərfəli deyil. Həm dövlətin, həm də vətəndaşların iqtisadi mənfəəti baxımından karantin rejiminin uzadılması zərərdir".

Azərbaycana gələn turistlərin böyük faizi quru sərhədlərimizin olduğu ölkələrin payına düşür. Yəni Azərbaycana gələn hər 10 turistin 7-sinin vətəndaşlığı olduğu ölkə ilə quru sərhədlərimiz var. Bu baxımdan, quru sərhədlərin açılması ölkəyə daha çox turistin gəlməsinə səbəb olmaqla real sektora dəstək ola bilər.

Hava nəqliyyatı ilə turistik səfərlər quru yolla gediş-gəlişi heç vaxt kompensasiya edə bilməz. Qiymət, xərclər arasındakı fərq o qədər böyükdür ki, təyyarə reyslərinə üstünlük verilməsini düşünmək belə absurddur. Quru sərhədlər açılsa, sərhədyanı bölgələrdə də hərəkətlilik yaranacaq, iqtisadi vəziyyət normallaşacaq".

**Şəymən**





# Məhərrəm İncə populist siyasətçidir

## Seçki ikinci tura qalsa belə, mübarizə Ərdoğan və Kılıçdaroğlu arasında gedəcək

**Türkiyənin Ali Seçki Qurumu mayın 14-də keçiriləcək parlament və prezident seçkiləri ilə bağlı statistika yayıb. Rəsmi açıqlamaya görə, 64 milyon 113 min 941 seçici qeydə alınıb, onların 3 milyon 416 min 98 nəfəri xaricdədir. Əgər prezident seçkisi ikinci tura qalarsa, o zaman ölkədə 47 min, xaricdə isə 2 min nəfərin də səsvermə hüququ yaranacaq.**

İlk turda prezident seçilmək üçün etibarlı səslərin 50 faizindən çoxunu almaq tələb olunur, əks halda ən çox səs yığmış iki namizəd ikinci tura çıxır. İlkin hesabata əsasən, parlament seçkisinə 24 partiyadan namizəd çıxarılır. 11 partiya mandat uğrunda ayrılıqda mübarizə aparır, 13 partiya isə ittifaqlarda yer alır. Qeyd olunub ki, 600 nəfərlik Türkiyə Böyük Millət Məclisinə düşmək üçün etibarlı səslərin azı 7 faizini qazanmaq şərtdir. İttifaqlarda isə bir partiyanın həmin həddə çatması kifayətdir. Millət vəkilliyinə 152 müstəqil namizəd də iddialıdır. Seçkinin nəticələri, xüsusən ikinci tura qalıb-qalmayacağı ilə bağlı Türkiyə ictimaiyyətində müxtəlif fikirlər səsləndirilir. Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop təcrübəsinə əsasən deyib ki, seçkilər ilk turda başa çatacaq. Şentop həmçinin anket rəyləri barədə də danışıb. Spikerin sözlərinə görə, anket rəylərinin nəticəsi obyektiv olmaya bilər: "Anketlər kifayət qədər çoxdur. Bəzi anket firmalarının adını ilk dəfə eşidirik. Bu, manipulyasiya cəhdlərinə, ictimai rəyi çaşdırmağa hesablanıb. Belə hallara başqa ölkələrdə də rast gəlinir". O qeyd edib ki, Türkiyəni anket rəylərinə yox, seçkilərin nəticəsinə görə qalib gələn idarə edir: "Siyasəti ancaq anket rəylərinə görə müəyyənləşdirmək düzgün deyil. Siyasətə yalnız seçkilər, sürpriz kimi yanaşmaq səhvdir. Türkiyənin müstəqilliyi üçün hazırkı sabitlik davam etdirilməlidir. Türkiyə Prezidentimizin liderliyi ilə son 20 ildə çox böyük işlər görüb. Bunların beynəlxalq münasibətlər sistemində nəticələrini görürük". Xatırladaq ki, dövlət başçısı postu uğrunda 4 namizəd mübarizə aparacaq. Bunlar "Cümhur İttifaqı"nın namizədi Rəcəb Tayyib Ərdoğan, "Millət İttifaqı"nın namizədi, müxalif Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu, müxalif Məmləkət Partiyasının lideri Məhərrəm İncə və "Ata İttifaqı"nın namizədi Sinan Oğandır. Sinan Oğan seçkinin ikinci tura qalacağını iddia edib. Məmləkət Partiyasının sədri Məhərrəm İncə isə ilk tur bitməmiş ikinci tur barədə danışmağı düzgün saymasa da, ikinci tura qalmaq arzusunda olduğunu açıqlayıb. İncə deyib ki, əgər ikinci tura qalarsa, Ərdoğana qalib gələ bilər. Həmçinin M.İncə bildirib ki, qətiyyən CHP sədri Kılıçdaroğlu lehinə geri çəkilmək fikri yoxdur.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında bildirib ki, Məhərrəm İncə populist siyasətçidir. Analitikin sözlərinə görə, İncə ancaq populizmlə səs yığa biləcəyinin fərqindədir:** "Düşünmürəm ki, digər namizədlərin iddia etdiyi kimi Türkiyədə prezident seçkisi ikinci tura qalacaq. Hətta seçki ikinci tura qalsa belə, mübarizə Ərdoğan və Kılıçdaroğlu arasında gedəcək. Sinan Oğanın isə ümumiyyətlə şansı yoxdur. İncə natiqliyi yaxşı bacarır və hər Ərdoğanın, həm də Kılıçdaroğlunun əleyhinə danışır. Lakin ən yaxşı halda 3-5 faiz səs toplaya bilər. Onun təkbaşına ciddi səs yığacağı inandırıcı deyil. Parlament seçkilərində də "Millət İttifaqı"nın üstünlük əldə edəcəyini zənn etmirəm. Açığı, hazırda Türkiyədə əvvəlki dönəmlərdə olduğu kimi geniş, kütləvi seçki marafonlarını müşahidə etmirik. Xüsusən, "Millət İttifaqı"nın ən onun vahid namizədi Kamal Kılıçdaroğlunun ciddi aktivliyi, seçki təbliğatı görünmür, kütləvi mitinqlər yoxdur. Sadəcə, Əkrəm İmamoğlu bir qədər fəallıq etməyə çalışır. O da öz xeyrinə oynayır. Növbəti seçkilər üçün, CHP-nin sədrlik postu üçün özünə xal toplayır. Ərdoğan özü də xüsusi mitinqlər təşkil etməsə belə, açılış mərasimlərində, görüşlərdə seçki təbliğatını aparır. Ümumən, ilk turda Rəcəb Tayyib Ərdoğanın qalib gələcəyini düşünürəm".

İsmayıl Qocayev

# Tokayev ölkəsinin xarici siyasət konsepsiyasını yeniləyir

## Qazaxıstan artıq Rusiyanın nəzarətindən çıxmaq, Çinin çətiri altına girmək üzrədir



**Qazaxıstan Prezidenti Qasım-Comart Tokayev ölkənin xarici siyasət konsepsiyasının yenilənməsinin zəruriliyini bəyan edib. Qazaxıstan lideri hökumət tərəfindən ölkənin xarici siyasətinin konsepsiyasının, eləcə də milli təhlükəsizlik strategiyasının yenilənməsinin zəruriliyini vurğulayıb: "Milli təhlükəsizliyin təmin edilməsi üçün tamamilə yeni yanaşmalar tələb olunur.**

Ona görə də müvafiq strategiya yenilənməlidir. Ölkənin xarici siyasət konsepsiyasının vaxtilə tamamilə fərqli geosiyasi şəraitdə qəbul edildiyini nəzərə alsaq, yenilənməyə ehtiyac var". Tokayevin sözlərinə görə, dünya böyük dəyişikliklərə məruz qalıb: "Bu səbəbdən də daxili təhlükəsizlik, müdafiə qabiliyyətinin gücləndirilməsi, Qazaxıstanın və bütün Mərkəzi Asiya regionunun beynəlxalq aləmdə nüfuzunun artırılması məsələlərinə xüsusi diqqət yetirilməlidir".

**Tokayevin təşəbbüsünü "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu bildirib ki, Qazaxıstan artıq Rusiyanın nəzarətindən çıxmaq, Çinin çətiri altına girmək üzrədir. Ekspertin sözlərinə görə, Tokayev ölkəsini Mərkəzi Asiyanın ən güclü dövlətinə çevirir:** "Maraqlı olan odur ki, Kreml bu ölkədə qarşıdurma yaratmağa çalışsa da, həmin istiqamətdə hər hansı uğur əldə etmədi. Rusiya Qazaxıstanda xaos yaratmaqla hakimiyyət dəyişikliyinə nail olmaq istəyirdi. Lakin Kreml Tokayevi yıxa bilmədi. Tokayevi təhdid edən Moskva bu ölkədə ikinci, üçüncü cəbhə açmaq niyyətində deyil, Kreml onsuz da Ukrayna böhranından çıxa bilmir. Tokayev kifayət qədər güclü mövqeyi olan bir siyasətçidir. Onun beynəlxalq dəstəyi də çoxdur. Xüsusən də, o, Çin tərəfindən dəstəklənir. Bu amillər Tokayevin devrilməsinə imkan verməyəcək. Burada Türkiyə faktorunu da unutmayaq. Düşünürəm ki, Kremlin Qazaxıstanda yaşayan rusdilli əhalidən separatizmi qızışdırmaq üçün istifadə edə bilər, lakin bu da uğur vəd etmir. Rusiya gecikib. Qazaxıstan paytaxtı Almatıdan Astanaya köçürəndə Kreml bunu diqqətə almadı. Nazarbayev Çin və Əfqanıstandan qazaxları ölkəyə dəvət edəndə artıq Kreml uduzmuşdu. Bu ölkələrdən Qazaxıstana köçürülənlərin hesabına qazax əhalisinin sayı 60 faizə çatdı. İndi qazaxlar Qazaxıstanda əsas söz sahibidirlər. Digər tərəfdən isə Çin Qazaxıstanı tam himayə edir".

İsmayıl



# İran tərəfi real addımlar atmalıdır

## Münasibətlərin normallaşması üçün Tehranın üzərinə ciddi vəzifələr düşür

**"Azərbaycan İranla münasibətlərinin normallaşmasında, həqiqətən də, maraqlıdır. Rəsmi Bakı bununla bağlı fikirlərini dəfələrlə ifadə edib və real addımlar atıb və bunu İran tərəfindən də hər zaman gözləyib".**

Bu barədə millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, hər birimiz Prezident İlham Əliyevin Cəbrayıla səfər zamanı əlini sərhədə və Xudafərin körpüsünə uzadaraq bu körpünü "dostluq körpüsü" adlandırdığını yaxşı xatırlayırıq: "Ancaq münasibətlərin normallaşması üçün İran tərəfinin də üzərinə ciddi vəzifələr düşür. Təəssüflə qeyd etmək lazımdır ki, danışıqların və müzakirələrin getdiyi bir vaxtda İranda Azərbaycan əleyhinə davamlı təbliğat aparan, Azərbaycanı təhdid edən "Hüseyniyyun" qrupunun ölkəmizə qarşı təxribatı davam edir. Hər gün çoxlu sayda videolar hazırlanaraq sosial şəbəkələrdə müxtəlif profil, səhifə və qruplar tərəfindən tirajlanır. Bu videolar son günlər daha da kəskin xarakter alıb. Əgər İran münasibətlərin normallaşmasını istəyirsə, bu cür çağırış və qrupların qarşısını almalıdır. Həmin qrupların müstəqil olmadığı, kiminsə tərəfindən maliyyələşdirildiyi hər kəsə məlumdur. Azərbaycanla münasibətlərin normallaşmasını istəyən İran tərəfi bu cür təbliğat və təxribatlara birdəfəlik son qoymalıdır. Bu, dostluq və normal qonşuluq münasibətlərinin ruhuna tamamilə zidd fəaliyyətdir".

Parlament üzvü vurğulayıb ki, İran ölkəmizə qarşı emissarları, maliyyələşdirdiyi qrupları vasitəsilə təbliğat və təxribatlarını davam etdirəcəksə, o zaman münasibətlərin yaxşılaşması çətin olacaq: "Münasibətlərin normallaşması ilə bağlı çağırışlar özünü həm də real addımlarda göstərməlidir. İranda təhsil alan azərbaycanlılar tərəfindən yaradılmış qrupların ölkəmizə qarşı təxribat və çağırışlarının qarşısı ən qısa vaxtda mütləq alınmalıdır. Onlar hələ də dindar Azərbaycan vətəndaşlarının beynini zəhərləməkdə, fikirlərini çaşdırmaqda davam edirlər. Başqa cür münasibətlərin normallaşması qeyri-mümkündür. Problemlərin həlli imitasiyadan deyil, real addımlardan keçir. İnanmaq istəyirik ki, İran tərəfi bunu anlayaraq real addımlar atacaq".

İsmayıl

# Daha kartof və soğan əkən yoxdur

## Pay torpaqları becərilmir, bahalaşma buna görə baş verir

**İkinci çörək hesab edilən kartof və soğanın qiyməti artıb.**

"Şərq" "Baku TV"-yə istinadən xəbər verir ki, paytaxtda yerləşən marketlərin birində kartofun qiyməti 1 manat 50 qəpiklə, 3 manat 50 qəpik arasında dəyişir. Soğanın qiyməti isə 90 qəpiklə, 1 manat 60 qəpik arasındadır.



**Qiymət artımını dəyərləndirən iqtisadçı Nazim Bəydəmirli söyləyib ki, bazarda təklif az olduqda qiymətlər bahalaşır:** "Azərbaycanda kartof və soğan əkimi ilə məşğul olan bölgələrdən əhali şəhərə toplaşıb. Buna görə də pay torpaqları əkilib-becərilmir və ehtiyat yaratmaq olmur. Hətta yaradılsa da belə, bu məhsulları uzun müddət saxlamaq çətindir. Ümumiyyətlə, hazırda bazarda satışda olan faraş kartof xarici ölkələrdən, əsasən də Pakistandan idxal olunur. Bazardakı qiymətlər isə kənd təsərrüfatı ilə məşğul olan sahibkarların, şirkətlərin fəaliyyəti məhdudlaşdırıldığı və monopoliya olduğu üçün artır. Digər tərəfdən, önəmli amillərdən biri də gömrük orqanlarının idxal prosesidir. Yəni indiki məqamda bazarda satılan kartof və soğanın əksəriyyəti xaricdən gəlir. Gömrük orqanları isə dəyərləndirmə qiymətini süni şəkildə şişirdirlər. Daha çox gömrük rüsumu ödəyən idxalçılar isə məhsulun maya dəyərinin tənzimləmək üçün qiymətləri qaldırırlar. Bu da bazarda qiymət artımına səbəb olur".

Nihat Müzəffər

# Əməli iş görməyin vaxtıdır

## Bu gün hər daşın altından İrana işləyən adamlar çıxır

**Son dövrlər Azərbaycanın xüsusi xidmət orqanları ölkə daxilində başqa dövlətlərin kəşfiyyat xidmətləri ilə əməkdaşlığa cəlb olunaraq dövlət əleyhinə casusluq fəaliyyəti il məşğul olanların ifşası ilə bağlı ciddi proses başladılıb. Təhlükə təsəvvür etdiyimizdən belə daha ciddimiş. İran tərəfindən yaradılan casus şəbəkəsi Azərbaycan cəmiyyətində kifayət qədər təhlükə yaradacaq bir səviyyəyə gəlib çıxıb.**

Onunla bağlı başladılan proses və İran xüsusi xidmət orqanlarının ələ aldığı, agenturaya cəlb etdiyi şəxslərlə İranda təhsil almaq adı altında ora aparılan şəxslərin əksəriyyəti bu ölkənin agentura şəbəkəsinə cəlb olunub. Bundan başqa, İranla bu və digər formada əlaqəli olan şəxsləri də bu prosesə qoşublar. İran tərəfində də belə bir arxayınlıq yaranmışdı ki, artıq onun kəşfiyyat orqanlarına cəlb olunan agentlərin sayı və imkanları kifayət qədər ciddidir. Guya onlar Azərbaycan daxilində istənilən terror hadisəsini, dövlət əleyhinə fəaliyyəti göstərə bilərlər.

Bu günlərdə İran xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən daha bir neçə nəfər saxlanılıb. Bir daha aydın olur ki, İran illərdir din pərdəsi altında inanclı şəxsləri cəlb edərək şəbəkə yaradıb və Azərbaycan əleyhinə iş aparır. Dünyəviliyə qarşı yönələn bu təbliğatı aparmaq üçün seçilən şəxslər də əksər vaxtlarda gənclərdir. Bu gənclər müxtəlif yollarla əməkdaşlığa cəlb edilərək, İran təbliğat maşınının qurbanına çevrilir, öz xalqına qarşı məqsədyönlü fəaliyyətə yönləndirilir.

**Milli Məclisin İnsan hüquqları Komitəsinin sədri Zahid Oruc deyib ki, İranın casus şəbəkəsi yalnız iradəsi zəif olan dini inanclı düşərgə və mərasim zallarında deyil, başqa sahələrdə də dərin kök atıblar.** Mühüm maliyyə-iqtisadi sferasında da İran xüsusi xidmət orqanlarına bağlı olanlar var. Normal münasibətlər dövründə iranlı iş adamları ölkəmizin iqtisadi, maliyyə və bank sisteminin müxtəlif həlqələrinə nüfuz ediblər. Qonşu ölkədə hakimiyyətin nəzarətində olan, dövriyyəsi milyon dolları keçən biznes şirkətlərinin ölkəmizdə kök salan nümayəndələri ETTEELAT-ın, SEPAH-ın bir parçasıdır.

Millət vəkili İranın Azərbaycandakı casus şəbəkəsinin tamamilə çökdürülməsinin vacibliyindən də danışıb: "Əgər ölkəmizi casuslardan təmizləməsək, daxili cəbhələr artacaq. Biət edənlərin sayı minlərlə deyil, lakin təcrid olunmasalar, təhlükə böyüyəcək. Çünki casusluğa cəlb olunanlar gec partlayan minalara bənzəyir. İşimiz təkcə azad torpaqları minasızlaşdırmaq deyil. Biz qalib dövlətdən qalib vətəndaşa çevrilməliyik".



*"Azərbaycanda casus şəbəkəsinin yaradılması 3-5 ilin işi deyil"*

*Z.Oruc vurğulayıb ki, Azərbaycanda heç zaman yaşıl bayraqlı dövlət olmayacaq:* "Dünyəvilik bizim mövcudluq formamızdır. Müstəqillik qanımıza, canımıza, ruhumuza keçib. Əsrlərlə bu torpaqları ələ keçirən imperiyalar dağılıb, lakin dünya xəritəsində Azərbaycan adlı dövlət yaşayır və qalib gəlir. Ona görə də ölkəmizin İrana qarşı 3-cü ölkələrdən hərbi-siyasi yardım istəyəcəyini gözləməsinlər".

**Sosioloq Əhməd Qaşəmoğlu isə "Şərq"ə açıqlamasında deyib ki, başqa dövlətlər tərəfindən ələ alınan vətəndaşların sayının bu qədər çox olmasının əsas səbəbi qloballaşma ilə bağlıdır:** "Qloballaşma ölkələrin bir-birinə müdaxilə imkanlarını genişləndirib. Həm texnologiyaların yaratdığı imkanlar sayəsində dünyanın istənilən ölkəsində yaşayan əcnəbilərlə əlaqə qurub, onların təsiri altına düşmək olur. Eyni zamanda gediş-geliş, turizm imkanları da insanları bir-birinə yaxınlaşdırıb.

Digər səbəb isə dünyada gedən siyasi proseslərdir. Geosiyasət artıq elə bir vəziyyətə çatıb ki, hər bir ölkənin digər ölkəylə bağlı bir marağı var. Xüsusən də dünyada güc sahibi olmaq istəyən böyük dövlətlər maraqları olan ölkələrdə özlərinin casus şəbəkəsini formalaşdırmaq istəyir.

Azərbaycanda isə təkcə İranın yox, bir çox ölkələrin marağı var. Yuxarıda da qeyd etdiyim kimi, dünyanın hər yerində casuslar fəaliyyət göstərir. Hətta bir-biriylə qardaş olan ölkələrdə belə bu cür şəbəkələr fəaliyyət göstərir. Sadəcə olaraq məqsəd məsələsi var.

Gəlin etiraf edək ki, İranın xüsusi xidmət orqanlarının Azərbaycan ərazisində məzhəbçilik bayrağı altında casus şəbəkəsi yaratması 3-5 ilin işi deyil. İranın islam dinindən öz maraqları üçün qonşu dövlətlərin ərazisində istifadə etməsi də bizim üçün təəccüblü deyil.

İran illərdir bu şəbəkəni qurub və bunu hüquq-mühafizə və təhlükəsizlik orqanları da daxil bütün qurumlar bilirdi. Sadəcə, İran ötən illər ərzində bu şəbəkələrin xidmətindən istifadə etmədiyi üçün Azərbaycan dövləti onlara qarşı mübarizəni labüd hesab etmirdi.

Lakin 44 günlük müharibədən sonra Azərbaycan-İran arasındakı münasibətlərin gərginləşməsi fonunda İran illərdir gözləmə mövqeyində saxladığı casus şəbəkəsini aktivləşdirməyə başladı. Azərbaycan dövləti də casus şəbəkəsinin ifşa edilməsi və ölkəmizə qarşı təhdidlərin aradan qaldırılması istiqamətində ciddi tədbirlər görür.

Amma çox təəssüf ki, illərlə bu sahədəki xəbərdarlıqlarım, çıxışlarımdan nəticə çıxaran olmadı. 30 il əvvəldən profilaktik tədbirlər görməli, milli-mənəvi dəyərlərimizə bağlı gənclər yetişdirməli idik ki, bu gün hər daşın altından İrana işləyən adam çıxmasın. Halbuki əksəriyyətinin heç İranın Azərbaycana qarşı olan xain planlarından xəbəri yoxdur. Onlar öz aləmlərində İranı islam dininin qoruyucusu kimi gördüklərindən onların maraqlarını müdafiə edirlər.

İllərdir gündəmə daşıdığımız problemləri aradan qaldırmaq üçün əməli iş görməyin vaxtıdır. Əgər müşahidə etdiyimiz boşluğu vaxtında doldurmazsaq, təhlükəli tendensiya davam edəcək. Təhsil sistemində şagirdlərə normal dini bilgilər vermək mümkündür.

Orta məktəblərdə ziyalılar, şairlər, ictimaiyyət nümayəndələri ilə görüş keçirilməli, milli-mənəvi dəyərlərimiz, dövlətçilik tariximiz aşılanmalıdır. Öz dəyərlərindən xəbərsiz olan gənclik öz casus şəbəkəsini qurmaq istəyən dövlətlər üçün "göydəndüşmə agentdir".

Şəymən

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi



# Dünya azərbaycanlılarının həmrəyliyi alqışlanmalıdır

## Soydaşlarımız Ermənistanın alçaq hərəkətlərini dünyaya yayır

**Vətənimizin şad günündə də, tarixi əhəmiyyət daşıyan gərgin, kədərli günlərində də birlik, həmrəylik nümayiş etdirən dünya azərbaycanlıları Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində Azərbaycan Ordusunun əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun Ermənistan tərəfindən əsir götürülməsi və Azərbaycan hərbçilərinə işgəncə verilməsi, onlarla qeyri-insani rəftar edilməsinə görə də yumruq kimi birləşiblər. Təbii ki, soydaşlarımızın birliyini möhkəmləndirən, onları Vətənin səsinə səs verməyə daha da ruhlandıran Azərbaycan Respublikasının Prezidenti, qalib Ali Baş Komandan İlham Əliyevin çağırışları, iradəsi və qətiyyətidir.**

Dünyanın müxtəlif ölkələrində təşkilatlanmış azərbaycanlılar bəyanat qəbul edərək Ermənistanın Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya, eləcə də digər mühüm beynəlxalq aktlar üzrə öhdəliklərini yerinə yetirmədiyini bildirir, müvafiq beynəlxalq təşkilatlardan həmin zorakılıq faktını araşdırmalarını, lazımi hüquqi qiymət vermələrini tələb edir, Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi üçün çağırış edirlər. Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsi dünya azərbaycanlılarının bəyanatının mətnini təqdim edib. Bəyanatda deyilir: "Biz, xaricdə yaşayan azərbaycanlılar təəssüf hissi ilə bəyan edirik ki, bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən yolu azmış Azərbaycan Ordusunun əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb. Nəzərinizə çatdıraq ki, Ermənistanın kütləvi informasiya vasitələrinin yaydığı foto və videolar Azərbaycan hərbçilərinə beynəlxalq hüquqi sənədlərə zidd olaraq işgəncə verildiyini və onlarla qeyri-insani rəftar edildiyini əyani şəkildə sübut edir. Belə ki, yayılan videoda azərbaycanlı hərbçilərin əli bağlı şəkildə döyülməsi və təhqir olunması aydın görünür. "Hərbi əsirlərlə rəftar haqqında" III Cenevrə Konvensiyasına əsasən, döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərlə bütün hallarda insani rəftar edilməli və hərbi əsirlərə qarşı zorakılıq hallarına və hədə-qorxuya yol verilməməlidir. Bu fakt Ermənistanın Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və digər mühüm beynəlxalq aktlar üzrə öhdəliklərini yerinə yetirməməsinin, bu ölkədə azərbaycanlılara qarşı geniş vüsət almış etnik nifrət və irqi ayrı-seçkiliyin əyani sübutudur. Müvafiq beynəlxalq təşkilatlar yuxarıda qeyd olunan zorakılıq faktını, həmçinin son 30 ildə Ermənistanın azərbaycanlı hərbi və mülki əsirlərə, itkin düşmüş 3890 şəxsə qarşı törədilmiş zorakılığı araşdırmalı və lazımi hüquqi qiymət verməlidir. Biz, xaricdə yaşayan azərbaycanlılar, bu cinayəti bir daha qətiyyətlə pisləyir və beynəlxalq ictimaiyyəti Ermənistan hökumətinin və cinayətkarların əməllərinə hüquqi qiymət verməyə, əlverişsiz hava şəraiti səbəbindən azaraq Ermənistanın nəzarətində olan ərazilərə keçmiş Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad edilməsini təmin etməyə çağırırıq. Biz, Beynəlxalq Qızıl Xaç Komitəsinin Ermənistandakı nümayəndəliyindən təcili olaraq azərbaycanlı hərbçilərə baş çəkməyi və onların vəziyyəti ilə bağlı məlumat verməyi tələb edirik. Biz, xaricdə yaşayan azərbaycanlılar, dünya ictimaiyyətini bu fakta biganə qalmamağa və Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələn öhdəliklərini yerinə yetirməsinə təsir göstərməyə çağırırıq".

Bəyanatdan da göründüyü kimi Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı dünya azərbaycanlılarında haqlı hiddət doğurub. ABŞ-də yaşayan Azərbaycan icması Nyu-Yorkdakı Azərbaycan-Amerika Qadınlar Cəmiyyəti, Amerika-Azərbaycan İnteqrasiya Mərkəzi, Yuta-Azərbaycan Dostluq Təşkilatı, Corc Vaşinqton Universitetinin Azərbaycanlı Tələbələr Assosiasiyası, Şimali Kaliforniyanın Azərbaycan Mədəniyyət Mərkəzi, Florida Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyası, Floridanın Azərbaycan-Amerika Cəmiyyəti, Azərbaycan-Amerika Gənclər Təşkilatı adından beynəlxalq qurumlara bəyanat ünvanlayıb, Ermənistanda Azərbaycan Ordusunun əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğluna qarşı qeyri-insani rəftara diqqət cəlb edib. Nəzərə çatdırılıb ki, Ermənistan mühüm beynəlxalq aktlar, o cümlədən Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyaları üzrə öhdəliklərini yerinə yetirmir. Soydaşlarımız müvafiq beynəlxalq təşkilatlardan həmin zorakılıq faktının araşdırılmasını, lazımi hüquqi qiymət verilməsi, Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad edilməsini tələb ediblər. Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən Amerika Azərbaycanlıları Koordinasiya Şurası da məlum faktı qətiyyətlə pisləyib. Amerika Azərbaycanlıları Koordinasiya Şurasının adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda bu zorakılıq aktı beynəlxalq humanitar qanunların Ermənistan tərəfindən kobudcasına pozulması kimi qiymətləndirilib. Müvafiq beynəlxalq təşkilatların təkcə bu cinayətkar insidenti deyil, həm də Ermənistan tərəfindən son 30 ildən artıq müddət ərzində itkin düşmüş 3890 nəfər azərbaycanlıya qarşı zorakılıq aktlarını araşdırmasının və lazımi qiymət verməsinin vacib olduğu nəzərə çatdırılıb. Amerika Azərbaycanlıları Koordinasiya Şurası beynəlxalq təşkilatları Ermənistan hökumətinin və bu cinayəti törətmiş şəxslərin hərəkətlərinə hüquqi qiymət verməyə, azərbaycanlı hərbi qulluqçularının dərhal və qeyd-şərtsiz azad olunmasını təmin etməyə çağırıblar. Həmçinin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fəaliyyət göstərən Azərbaycan icması da Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktını qətiyyətlə pisləyib. Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, Britaniya Azərbaycanlıları Assosiasiyası, Şimali İrlandiyanın Azərbaycan icması adından Birləşmiş Krallıq ictimaiyyətinə və beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda Azərbaycan Ordusu əsgərlərinin hansı şəraitdə Ermənistana əsir düşməsinə aydınlıq gətirilib, onlara qarşı qeyri-insani rəftara diqqət cəlb edilib. Bu vandalizm aktı beynəlxalq humanitar qanunların Ermənistan tərəfindən kobudcasına pozulması kimi qiymətləndirilib. Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı İsveçrədə yaşayan soydaşlarımızın da böyük etirazına səbəb olub. İsveçrə Azərbaycanlıları Koordinasiya Şurası adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda azərbaycanlı hərbçilərə qarşı edilmiş qeyri-insani hərəkətlərə diqqət cəlb olunub, bu cinayətkar insident beynəlxalq humanitar qanunların Ermənistan tərəfindən kobudcasına pozulması kimi qiymətləndirilib. Azərbaycan hərbçilərinə işgəncə verilməsini qətiyyətlə pisləyən İsveçrə Azərbaycanlıları Koordinasiya Şurası beynəlxalq təşkilatları Ermənistan hökumətinin və bu cinayəti törətmiş şəxslərin hərəkətlərinə hüquqi qiymət verməyə çağırıb.

### *"Əminik ki, hərbçilərimiz azad ediləcək, amma ermənilərin alçaq xislətini üzə çıxaran bu hadisə də tarixdə qalacaq"*

**Azərbaycan Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında dünya azərbaycanlılarının həmrəyliyini alqışladığını dedi:**

- Xarici ölkələrdə yaşayan, müxtəlif sahələrdə fəaliyyət göstərən soydaşlarımızın həmrəylik nümayiş etdirməsi, əlbəttə, qürurvericidir. Vətənimiz üçün həssas zamanlarda biz həmişə bunun şahidi olmuşuq. İki hərbçimizin Ermənistan tərəfindən əsir götürülməsi və onlara qarşı qeyri-insani, qəddar münasibət, biz azərbaycanlılar üçün gözlənilməz bir hadisə də deyil. Çünki erməni xislətinə bələdik. Qarabağ müharibəsindən əvvəl də bu bəlli idi, Qarabağ müharibəsində isə lap açıq şəkildə özünü büruzə verdi. Məlum məsələdir, erməni separatçıları məğlubiyyətlərini həzm edə bilmir, əllərinə iyrənc bir fürsət düşən kimi qisas almağa çalışırlar. Əsirlərlə bu cür qəddar davranış da, erməni separatçılarının hansı xislətə malik olduqlarını göstərən növbəti hadisədir. Dünya azərbaycanlılarının beynəlxalq təşkilatlara, yaşadıqları ölkələrin rəsmi qurumlarına, insan haqları təşkilatlarına müraciət etmələri, bəyanatla çıxış edərək həqiqətləri diqqətə çatdırmaları müsbət haldır. Həmin bəyanatlarda tamamilə doğru olaraq vurğulanır ki, müvafiq beynəlxalq təşkilatların təkcə bu cinayətkar insidenti deyil, həm də Ermənistan tərəfindən son 30 ildən artıq müddət ərzində itkin düşmüş 3890 nəfər azərbaycanlıya qarşı zorakılıq aktlarını araşdırması və hüquqi qiymət verməsi vacibdir. Ermənistanın mühüm beynəlxalq aktları, o cümlədən Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyalar üzrə öhdəliklərini yerinə yetirməsi tələb olunmalıdır. Soydaşlarımız yerli ictimaiyyəti və beynəlxalq təşkilatları həmin zorakılıq faktının araşdırılmasına, lazımi hüquqi qiymət verilməsinə çağırır və Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad olunmasını tələb edir. Əminik ki, hərbçilərimiz azad ediləcək, amma ermənilərin alçaq xislətini üzə çıxaran bu hadisə də tarixdə qalacaq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Sorğunun nəticələri İrana siqnal olmalıdır!

## Əgər onların qərəzli, aqressiv və qeyri-obyektiv siyasəti davam edərsə, bu göstərici daha da artacaq

**"Azərbaycan əhalisinin 76.8 faizi İranın regionda Ermənistanın maraqlarını qoruduğunu düşünür". Bu, Sosial Tədqiqatlar Mərkəzinin (STM) "İranın regionda maraqlarını necə xarakterizə edirsiniz" sualı ilə bağlı keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə əsasən məlum olub.**

Bildirilib ki, iştirakçıların 5.5 faizi İranın Ermənistan və Azərbaycana münasibətdə tərəfsiz mövqedə olduğunu, cəmi 3.4 faizi Azərbaycanın maraqlarını üstün tutduğunu ifadə edib.

Respondentlərin 14.3 faizi bu barədə məlumatsız olduğunu bildirib, yaxud fikir bildirməkdə çətinlik çəkib.

Sosial Tədqiqatlar Mərkəzinin yetərincə ciddi qur**um olduğunu deyən siyasi şərhçi Kənan Novruzov "Şərq"ə bildirib ki, STM ictimai şüuru obyektiv və düzgün şəkildə ortaya qoymağı bacarır:** "Bu qurumun peşəkarlardan ibarət heyəti var və onun sorğuları kifayət qədər sınanılıb. Bu sorğunun nəticələri isə mənim üçün gözlənilməz olmadı.

Çünki İran Azərbaycanla bağlı son vaxtlarda aqressiv siyasət ortaya qoyur. Yəni bu sorğunun nəticəsi molla rejiminin anti-Azərbaycan siyasətinin nəticəsidir. Tehrandakı səfirliyimizə hücum, azərbaycanlı millət vəkili Fazil Mustafaya qarşı sui-qəsd planı, vətəndaşlarımızın orda itkin düşməsi və başqa hadisələr Azərbaycan xalqında İrana qarşı bu cür münasibət yaradır. Şübhəsiz ki, bu cənub qonşumuza siqnal olmalıdır".

**Analitikin sözlərinə görə, əgər onların qərəzli, aqressiv və qeyri-obyektiv siyasəti davam edərsə, bu göstərici daha da artacaq:** "Hətta biz bu inamsızlığın 85-90 faizə qalxdığını belə görə bilərik. Amma bu heç bir halda Azərbaycanın İrana kini kimi yox, məhz rəsmi Tehranın aqressiv siyasətinin bəhrəsi kimi qiymətləndirilməlidir.

Həmçinin son günlər Azərbaycan XİN-in rəhbəri Ceyhun Bayramov və iranlı həmkarı Seyid Əmir Abdullahian arasında ardıcıl iki telefon danışığı olub. Düzdür, münasibətlərin normallaşması üçün cəmi iki telefon danışığı kifayət deyil. Amma bu təmaslar davam edərsə, tərəflər arasındakı soyuq küləklər aradan qalxa bilər".

**Nihat**

# Fitrə zəkatı bayram namazından öncə çıxarılmalıdır

## Elə olmalıdır ki, ehtiyac sahibi insanlar da bayramı qeyd edə bilsinlər

**Bu il veriləcək fitrə zəkatının məbləği bəlli olub. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvasına əsasən, adambaşına 10-15 manat fitrə zəkatının verilməsi tövsiyə olunur. Qeyd olunub ki, orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günü - Bayram axşamı şam namazından sonradır.**



Vurğulanıb ki, fitrə canın sədəqəsidir və imkanı olan şəxslərin ailənin hər üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyac sahiblərinə verməsi vacibdir. Fitrə zəkatının verilməsi hər bir ailəyə bayram ovqatı yaşamağa imkan yaradır. Məlumat üçün bildirək ki, Ramazan bayramı aprelin 21-dir.

Fitrə zəkatının məbləği və nəyə əsasən 10-15 manat müəyyən edilməsi ilə bağlı "Şərq"ə danışan ilahiyyatçı Ağa Hacıbəyli deyib ki, fətva verən məsul şəxslərin istinad etdiyi mənbələr var. İlahiyyatçı bildirib ki, şəri hökm olaraq, fitrə zəkatı adətən xurmadan, buğdadan, arpadan, düyüdən və kişmişdən verilir: "Bu da hardasa 2 kiloqram 700 qram, 3 kiloqram civarında olan ərzağın ümumi məbləği deməkdir və bir nəfər üçün nəzərdə tutulan dəyərdir. Məsələ ondadır ki, xurmanın qiyməti müxtəlifdir, yəni 5 manatlıq xurma ilə yanaşı, kiloqramı 20-30 manata olan xurmalar da var. Düyü 3-5 manat civarındadır. Kişmişin qiyməti 10-20 manat arasında dəyişir. Buğda və arpanın qiyməti isə ucuzdur, hardasa 80 qəpiyə, yaxud 1 manata satılır. Fitrə zəkatında müəyyən olunmuş rəqəmin fərqliliyi ərzaqların qiymət müxtəlifliyindən qaynaqlanır. Şəriət fətva verəndə qeyd olunan qida məhsulları arasından hansı bölgədə insanların daha çox nəyə ehtiyac duyduğunu nəzərə alır. Əgər bir yerdə tələbat buğdaya, yaxud düyüyədirsə, fitrə bunların üzərindən hesablanır. Azərbaycanda xurma orucluqda istifadə olunsa da, ümumi anlamda zəruri qida hesab olunmur. Ölkəmizdə daha çox buğda, arpa və düyü istifadə olunur. Ona görə də Qazılar Şurası bir adam başına 10-15 manat fitrə zəkatını tövsiyə ediblər. Qeyd edim ki, bu, minimum miqdardır".

İlahiyyatçı əlavə edib ki, əcdadımız arasında zəngin olanlar fitrə sədəqəsini elə çıxarırlarmış ki, fitrəni qəbul edən kasıb adamın bütün ehtiyacı ödənirmiş: "Fitrə sədəqəsindəki qayə insanları asılı vəziyyətə gətirmək deyil, tam əksinə, o cəmiyyətdə olan ən yoxsul, fəqir kimsələri ictimaiyyətə qazandırmaq, onların rifahını yüksəltməkdir. Həmin şəxslərə bayram sevincini yaşatmaqdır. Ölkəmizdə bu şüurun yayılması, bu istiqamətdə təbliğatın aparılması üçün zəngin adamlarımız həm zəkatını çıxartmalıdır, həm də fitrə sədəqəsini verməlidir. Peyğəmbərimiz əleyhissəlam buyurur ki, "tutduğunuz oruc səmada asılı vəziyyətdədir, fitrə zəkatından sonra oruclar Allah qatında qəbul olunur". Fitrə sədəqəsi bu qədər önəm kəsb edir. Fitrə zəkatı bayram namazından öncə çıxarılmalıdır ki, ehtiyac sahibi insanlar da bayramı qeydə edə bilsinlər".

**İsmayıl Qocayev**

# 4-cü siniflərdə monitorinq keçiriləcək

## Bu yoxlamalar təkcə şagirdlərin bilik səviyyəsini deyil, ibtidai sinif müəllimlərinin də bacarıqlarını üzə çıxarır

**Elm və Təhsil Nazirliyi ölkə üzrə bütün dövlət ümumi təhsil müəssisələrinin 4-cü siniflərində iyunun 10-da monitorinq təşkil edəcək. Nazirlikdən verilən məlumata görə, monitorinq tədris dili və riyaziyyat fənləri üzrə aparılacaq. Şagird nailiyyətlərinin yaxşılaşdırılması, IV sinfin sonunda şagirdlərdə müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığının müəyyən edilməsi və ibtidai təhsil səviyyəsində keyfiyyətin artırılması istiqamətində tədbirlərin görülməsi monitorinqin əsas məqsədlərindəndir.**

Monitorinqdə şagirdlərə təqdim olunacaq tapşırıqlar tədris dili fənnindən oxu və dil qaydaları məzmun xətlərini, riyaziyyat fənnindən isə ədədlər və əməllər, cəbr və funksiyalar, həndəsə, ölçmə, statistika və ehtimal məzmun xətlərini əhatə edəcək. Təhsilalanlara tədris dili fənni üzrə 30 qapalı, riyaziyyat fənni üzrə isə 27 qapalı və 3 açıq sual təqdim olunacaq. Monitorinqin müddəti 120 dəqiqədir. Monitorinqin nəticəsi şagirdlərin summativ qiymətləndirmə nəticələrinə, eyni zamanda onların sinifdən sinfə keçmələrinə təsir göstərmir. Qeyd edilir ki, ümumi təhsil müəssisələrində IV siniflər üzrə bütün təhsilalanların monitorinqdə iştirakı icbaridir. Yalnız üzrlü səbəblər (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) olduğu təqdirdə təhsilalanlar monitorinqdə iştirak etməyə bilər.



***"Monitorinqdə iştirak etməyən şagirdlərə qarşı hər hansı sərt tədbir də görülməyəcək. Nazirliyin məqsədi ibtidai sinif şagirdlərinin 4 il ərzində nəyə nail olduğunu, biliklərə yiyələnmə səviyyəsini öyrənməkdir"***

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd etdi ki, bu cür monitorinqlər (imtahanlar) son illərdə keçirilir, məqsəd də aydındır:**

- 4-cü sinifdə ibtidai təhsil mərhələsi bitir, təhsilin orta pilləsi başlayır. Elm və Təhsil Nazirliyi bu monitorinqləri təşkil etməklə təhsilin ibtidai pilləsini bitirən şagirdlərin bilik və bacarıqlarına nə dərəcədə yiyələndiyini müəyyən etmək istəyir. Nəticələr tədris prosesində hansı addımların atılmalı olduğunu da göstərir. Sonrakı addımlar üçün zəmin yaradır. Monitorinqdə təkcə şagirdlərin bilik səviyyəsini deyil, ibtidai sinif müəllimlərinin də hansı bacarıqlara sahib olduğunu üzə çıxarır. Müəllimlər şagirdlərə bilik və bacarıqları nə dərəcədə aşılaya bilib, fənləri hansı dərəcədə tədris edə biliblər. Bu monitorinqlər həm şagirdlərin, həm də müəllimlərin səviyyəsini müəyyən edir.

**E.Əfəndi qeyd etdi ki, ibtidai sinif şagirdlərinin tədris ilinin sonunda monitorinqə cəlb edilməsindən valideynlər narahatlıq keçirməməlidir:**

- Məlumatda qeyd edildiyi kimi monitorinqin nəticələri şagirdlərin qiymətlərinə, yuxarı sinfə keçmələrinə mane olmayacaq. Monitorinqdə iştirak etməyən şagirdlərə qarşı hər hansı sərt tədbir də görülməyəcək. Nazirliyin məqsədi ibtidai sinif şagirdlərinin 4 il ərzində nəyə nail olduğunu, biliklərə yiyələnmə səviyyəsini öyrənməkdir. Amma valideynlər narahat olmasın, əksinə, bu monitorinqin keçirilməsinə sevinsinlər. Çünki övladlarının ötən 4 ildə biliklərə nə dərəcədə yiyələndiyini öyrənəcəklər.

**Məlahət Rzayeva**

# Şagirdlərin zəhərlənməsi

## Bu aylarda məktəbli uşaqlar alça yeməməlidir



**Məktəblərdə ard-arda şagirdlərin zəhərlənməsi valideynlərdə ciddi narahatlığa səbəb olub. Dünən Binə qəsəbəsi 149 saylı orta məktəbdə 15 şagirdin zəhərlənməsi xəbəri bu narahatlığı bir qədər də artırıb.**

149 saylı məktəbin Təlim-tərbiyə işləri üzrə direktor müavini Nəriman Məmmədzadə "Sputnik Azərbaycan"a açıqlamasında bildirib ki, zəhərlənməyə səbəb məktəb bufetində satılan qidalar olmayıb: "Şagirdlərdə narahatlıq qəbul etdikləri qida ilə bağlı olmayıb. Sinifdə 15-ə yaxın şagirddə ürəkbulanma müşahidə olunmuşdu. Şagirdlər də bildirdilər ki, onlar alça yeyib, üstündən su içiblər. Çox güman ki, mədələrində yaranmış narahatlıq da bununla bağlı olub. Hazırda şagirdlər dərsdədirlər, onların səhhətində heç bir problem yoxdur".

Mərkəzin Toksikologiya şöbəsinin müdiri Azər Maqsudov isə bildirib ki, şagirdlərin qidadan zəhərləndiyi təsdiqlənməyib: "Şagirdlər özlərini narahat hiss etsələr də, onların hər hansı qidadan zəhərləndiyi öz təsdiqini tapmayıb. Ümumiyyətlə, səhhətlərində yaranmış problem ciddi olmayıb. Özlərini narahat hiss etdiklərini dedikdən sonra Kliniki Tibbi Mərkəzin təcili yardım şöbəsinə gətiriliblər. Şagirdlərdə səbəbi dəqiqləşdirilməmiş

***Mövsümdən əvvəl yetişsin deyə meyvələrə dərman vurulur və yuyulmadan yeyiləndə zəhərlənməyə səbəb olur***

yüngül zəhərlənmə diaqnozu qoyulub. Onlar bildiriblər ki, idman zalında məşq etdikdən sonra su içiblər. Ola bilər ki, bədənləri tərləyib soyuyub, ardınca su içdikləri üçün mədədə narahatlıq yaranıb, ürəkbulanma baş verib. Şagirdlərə ambulator şəkildə köməklik göstərildi, müayinədən sonra hamısı evə buraxıldı".

Qeyd edək ki, məktəbdən və klinikadan şagirdlərin qidadan zəhərlənmədiyini bildirsələr də, artıq Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bu gün məktəbdə yoxlamalara başlayıb. Agentlikdən bildirdilər ki, hazırda nümayəndələr hadisənin qeydə alındığı məktəbdədirlər. Yoxlamaların nəticəsi barədə ictimaiyyətə məlumat veriləcək.

Xatırladaq ki, aprelin 6-da Bakı şəhəri 20 nömrəli məktəb-liseydə uşaqların zəhərlənməsi hadisəsi baş verməmişdi.

**Qida məsələləri üzrə ekspert Ağa Salamov isə "Şərq"ə açıqlamasında deyib ki, uşaqların zəhərlənməsi ilə bağlı çox fərqli açıqlamalar yayıldı:** "Əvvəl uşaqların qidadan yox, havadan zəhərləndiyinə dair məlumat yayıldı. Daha sonra isə həkimlərin verdiyi açıqlamada uşaqların alçadan zəhərləndiyi ehtimalı irəli sürüldü. Digər bir məlumatda isə mənşəyi məlum olmayan qidadan zəhərləndikləri qeyd olunub.

Sözsüz ki, uşaqların alçadan zəhərlənməsi inandırıcı faktdır. Çünki indi alçanın mövsümi deyil. Amma bu, məktəb rəhbərliyini məsuliyyətdən azad etmir. Bu aylarda məktəbli uşaqlara alça yedirtmək düzgün deyil. Əgər uşaqlardan hansısa alçanı özü alıb aparıbsa, məktəb rəhbərliyi onu içəri keçirtməyə icazə verməməli idi. Yəqin ki, yumadan yedikləri üçün kimyəvi zəhərlənmə baş verib. Çünki mövsümdən əvvəl yetişsin deyə meyvələrə dərman vurulur və yuyulmadan yeyiləndə kimyəvi zəhərlənməyə səbəb olur. Yox, əgər zəhərlənməyə səbəb mənşəyi məlum olmayan qidalardırsa, burada artıq onların bufetdə yedikləri yeməyin keyfiyyətsiz olduğu müəyyən olunur. Hər iki halda məktəb rəhbərliyi məsuliyyət daşıyır".

**Şəymən**

# "Evlənməmək olar, amma..."

## Boşanmaların artan xətt üzrə inkişafı çox ciddi bir siqnaldır

**"Apardığımız müşahidələrə görə, reallıqda Azərbaycan cəmiyyətinin ailə institutunda ciddi problemlər yaşanmaqdadır".**

*Bunu "Şərq"ə sosioloq Ağasəlim Həsənov Azərbaycanda nikahların sayının azalması, boşanmaların artmasından danışarkən söyləyib.* Onun fikrincə, ailə cəmiyyətin əsas sosial institutlarından biri kimi çox mühüm funksiyaları yerinə yetirir: "Həmin funksiyalardan biri əhali artımıdır. Deməli, bu məsələ nikaha daxilolma və boşanmalarla bilavasitə əlaqəlidir. Bu gün Azərbaycan cəmiyyətində nikaha daxilolmaların sayının azalması və boşanmaların artan xətt üzrə inkişafı çox ciddi bir siqnaldır. Eyni zamanda ailə qurmaq məsələsinə münasibətdə də Azərbaycan gəncləri arasında yeni bir tendensiya baş qaldırır. Yəni evlənməmək olar, amma təhlükəlidir. Neqativ nəticələrini də gələcəkdə cəmiyyət və dövlət olaraq görə bilərik. Boşanmaların artmasına ilk səbəb kimi ailə institutuna münasibətdə baş verən dəyişiklikləri qeyd etmək mümkündür. Bu baxımdan cəmiyyətimizdə mənəvi deqredasiyanın getdiyini izləyirik. İkinci bir amil kimi, sosial-psixoloji amillərі göstərə bilərik. Yeni gənclər bəzən böyüklərin, valideynlərin məsləhətləri, tövsiyələri ilə seçim etmək məcburiyyətində qalırlar.

Ailə qurduqdan sonra isə məlum olur ki, kişi ilə qadın arasında sosial-psixoloji baxımdan böyük uyğunsuzluq var, fərqli insan tipləridir, onların ailə kimi bir yerdə yaşaması demək olar ki, mümkünsüzdür. Beləliklə, ailə münaqişələri, fikir ayrılıqları, ziddiyyətlər baş qaldırır. Təbii ki, gənclər valideyn tövsiyəsi olmadan da seçim edib, ailə qurduqda sosial-psixoloji uyğunsuzluq halı baş qaldıra bilər.



***Gənclər arasında təhlükəli tendensiya yaşanır***

Qərb təcrübəsində cütlüklərin nikaha daxil olmazdan əvvəl bir-birini tanıması müddəti var. Düşünürəm ki, bu, çox vacib məqamdır. Tövsiyə edərdik ki, gənclərimiz ailə qurma qərarı verməzdən öncə bir-birini kifayət qədər tanısınlar. Sonra qərar versinlər. Əlbəttə, bu cür olduğu halda boşanma halları azala, ailənin bütövlüyü qoruna bilər".

Mütəxəssis diqqətə çatdırıb ki, müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı boşanmalara səbəb ola biləcək amillər sırasındadır: "İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində yaranan yeni ünsiyyət proqramları, sosial mediadan geniş istifadə ailə münaqişələrinə, ailədaxili problemlərə yol açan məqamlardandır. Dəfələrlə izləmişik ki, sosial mediada hansısa bir gənc xanım və ya bəy əks-cinsdən olan fərdlə əlaqə qurur.

Bu münasibətlər get-gedə inkişaf edir. Təbii ki, bir müddət gizlində qalsa da, ailə daxilində bilinməsə də, sonda tərəflərdən biri bundan xəbərdar olur. Təbii ki, etirazlar baş qaldırır, səbəblər soruşulur, günahlandırma prosesi başlayır. Yəni konkret olaraq, ciddi bir ailə problemləri ortaya çıxır.

Məhz ayrı-ayrı fərdlərin informasiya texnologiyalarının yaratdığı yeni imkanlardan neqativ istiqamətdə faydalanması məhz ailədaxili münaqişələrə gətirib çıxarır. Bu da nəticə etibarilə boşanmaların statistikasının artmasına təsir edən amillərdən biridir. Bundan başqa, Azərbaycanda yeni ailə qurmuş gənclərə hər iki tərəfdən kənar müdaxilələr olur. Cütlüklər bir-birinə güzəştə getmir. Eyni zamanda süni boşanmalar da mövcuddur. Xarici ölkələrə gedib, nikaha daxil olub, gələcəkdə hansısa ölkədə vətəndaşlıq əldə etmək kimi arzuların gerçəkləşdirilməsi səbəbindən bu addımı atırlar".

*Qeyd edək ki, bu ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri 7 541 nikah və 3 014 boşanma halı qeydə alıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.*

**Sücayət Mehti**




# Naxçıvanda "Nar"ın yeni mağazası təqdim edildi

**18 aprel tarixindən etibarən, "Nar"abunəçiləri Naxçıvan şəhəri, Təbriz küçəsi 1 ünvanında yerləşən"Nar"ın yenilənmiş mağazasında üstün müştəri xidmətləri ala biləcəklər.**

Mağazada ziyarətçilərə nömrələrin satışı, bərpası, və dublikatının çıxarılması kimi xidmətlərlə yanaşı mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir.

Yeni konseptli mağaza ilə yanaşı, "Nar" abunəçilərinə Muxtar Respublika ərazisində fəaliyyət göstərən ən geniş mobil şəbəkələrdən birini təqdim edir. Naxçıvan şəhəri ilə yanaşı, Ordubad, Şahbuz, Culfa, Sədərək, Babək və Kəngərli rayonlarında "Nar" abunəçiləri yüksək sürətli və kəsintisiz mobil rabitə xidmətlərindən istifadə edir.

Mobil operatorun regionlara xüsusi diqqətinivurğulayan "Nar"ın Baş İcraçı Direktoru Qunnar Panke bildirib: "Naxçıvandakı abunəçilərimizəüstünmüştəri təcrübəsi təqdim etməklə yanaşı, Muxtar Respublikaya geniş həcmli investisiya edirik. "Nar" artıq Naxçıvan şəhərində və Muxtar Respublikanın rayonlarında ən geniş mobil şəbəkələrdən birinə sahibdir. Bundan başqa, faydalı sosial layihələrimizlə Naxçıvan sakinlərinə dəstək olmaqdayıq. Buradakı fəaliyyətimizlə bağlı aldığımız xoş rəylər bizi çox sevindirir və bizi müştərilərimizə daha da yüksək xidmət göstərməyə sövq edir".

Müştərilərə ən üstün xidmət strategiyasına uyğun olaraq, "Nar" ilin sonuna kimi ölkə boyunca 17 mağazasını tamamilə yeniləməyi və ziyarətçilərə daha da yüksək xidmət göstərməyi planlaşdırıb. "Nar" mağazalarının ünvanı və xidmətlər haqqında ətraflı məlumatı nar.az/map səhifəsindən öyrənmək olar.

# Ramiz Məlik danışa bilmədi

## "Səhhətimlə bağlı nə deyilibsə, düzdür"



**Vəziyyətinin ağırlaşdığı deyilən Xalq artisti Ramiz Məlik açıqlama verib.**

Bu barədə aktyor "Şərq"ə danışıb. O, səhhəti ilə bağlı sualları cavablandırmaq istəməsə də, qızının dediklərini təsdiqləyib: "Səhhətimlə bağlı nə deyilibsə, düzdür. Bahar da yazıb, saytlarda da verib. Nə material varsa, ondan da istifadə edin. Xudahafiz".

*Qeyd edək ki, sənətçinin qızı "Lent.az"a açıqlamasında atasının vəziyyətinin ağır olduğunu və telefonla danışa bilmədiyini demişdi.*

**Samirə Ərəblinskaya**

**Elan**

Baxşiyeva Aygün Arif qızının adına verilmiş AA0880903 №-li şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA40060380300225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 996



## Yeməkdən sonra yuxuya getmək

Bu, müəyyən xəstəliyin əlaməti ola bilər

**Yeməkdən sonra yuxuya meyillilik hansısa xəstəliyin əlaməti ola bilərmi? Etiraf edək ki, bir çox insan eyni halla üzləşir. Mütəxəssislər hesab edir ki, yeməkdən sonra yuxu basması tez-tez təkrarlanırsa, həkimə müraciət etməkdə fayda var.**

”Şərq” ”Habertürk”ə istinadən bildirir ki, yeməkdən sonra yuxu güc gəlirsə, bu, müəyyən xəstəliyin əlaməti ola bilər. Yeməkdən sonra niyə insanı yuxu basır? Həkimlərin bildirdiyinə görə, həzm sistemi insanın qəbul etdiyi qidaya uyğun enerji sərf edir. Əgər insan bol miqdarda yemək yeyibsə, həzm sistemi daha çox enerjiyə ehtiyac duyur, bununla əlaqədar orqanizmdə aktiv olan digər enerji sistemləri qapanır, bu da insanın özünü yuxulu hiss etməsinə səbəb olur. Belə demək mümkünsə, həzm sistemi orqanizmin bütün enerjisini çəkib alaraq qidanın həzminə yönəldir, enerjisiz qalan orqanizm yorğunluq hiss edir, bu da özünü yuxuya meyillilikdə göstərir. Amma hansı qidaların qəbul edildiyi də önəmlidir. Əgər qidalar karbohidratla zəngindirsə, orqanizmdə yüksək miqdarda insulin ifraz etməyə başlayır. Bu durum yuxu hormonu olan seratonini də təsiri altına alır. Beləcə, xalq arasında geniş yayılmış deyim” yuxu məni basdı”, gerçəkləşmiş olur. Belə vəziyyətlə tez-tez qarşılaşanlar qanda şəkərin miqdarını ölçdürsələr yaxşıdı. Bu durum şəkər xəstəliyinin başlanğıcı əlaməti də ola bilər.

**Məlahət**

## Bu gün ilin ilk Günəş tutulması olacaq

5 saat 25 dəqiqə davam edəcək



**Aprel ayının 20-də 2023-cü ilin ilk tutulma hadisəsi - Günəş tutulması olacaq.**

Şamaxı Astrofizika Rəsədxanasından verilən xəbərə görə, bu tutulma hibrid Günəş tutulmasıdır. Hibrid Günəş tutulması mərkəzi tutulma trayektoriyası boyunca müşahidəçinin mövqeyindən asılı olaraq halqavari və ya tam Günəş tutulmasının müşahidə olunmasıdır.

Tutulma hadisəsi yerli vaxtla saat 05:34-də başlayacaq və saat 10:59-da sona çatacaq. Ümumilikdə 5 saat 25 dəqiqə davam edəcək tutulmanın maksimumu saat 08:16-da olacaq.

*Qeyd edək ki, ilin ilk Günəş tutulması Cənub-Şərqi Asiya, Avstraliya, Sakit okean, Hind okeanı və Antarktidada müşahidə olunacaq. Azərbaycan ərazisində isə müşahidə olunmayacaq.*

## Geyiminə görə Qətərdə etirazlara səbəb olan qız Bakıya gəlir



**”Miss Xorvatiya 2016” titulunun qalibi İvana Knoll Bakıya gəlməyə hazırlaşır.**

**Axşam.az xəbər verir ki, bu haqda model özü məlumat yayıb. O bildirib ki, 28-30 aprel tarixlərində Bakıda keçiriləcək ”Formula” 1 Azərbaycan Qran Prisi üçün Azərbaycana gəlir.**

**O bildirib ki, ”Formula 1”in pərəstişkarıdır və onu canlı izləmək üçün həyəcanlanır. Xorvatiyalı modelin instaqramda 3,4 milyondan çox abunəçisi var.**

***Qeyd edək ki, İvana 2022-ci ildə Qətərdə keçirilən Dünya Kuboku zamanı məşhurlaşıb. O, açıq geyimdə matç izləməyə yollanıb. Mediada Qətərdə insanların onun ölkəyə gəlişinə qadağa qoyulmasını, həbs olunmasını tələb etdiyi yazılıb. İnsanlar hətta modelin matç izlənməyə buraxılmamasını istəyib.***

## Polis İbrahim Tatlısəsə görə gözyaşardıcı qazdan istifadə etdi



**Türkiyəli müğənni İbrahim Tatlısəs İraqın Ərbil şəhərində mağaza açılışına qatılıb.**

**Axşam.az xəbər verir ki, ifaçının gəlişi izdihama səbəb olub. Əvvəlcə fanatlar Tatlısəsi görmək üçün hava limanının qarşısına toplaşıb. Onlar daha sonra açılış olan əraziyə yollanıblar. Təhlükəsizlik qüvvələri Tatlısəsi qorumaq üçün kütləyə gözyaşardıcı qazla müdaxilə etməli olub.**

## Tanınmış aktyor 7 illik sevgilisi ilə evləndi



**Tanınmış aktyor Dağhan Külegeç 7 illik sevgilisi ilə ailə həyatı qurub.**

**Bakupost.az xəbər verir ki, aktyor İnstagram-da nigahından fotolar paylaşıb.**

**Külegeçin paylaşımına Yasemin Allen, Arzu Yanardağ, Tolqa Mendi və İbrahim Kəndirci kimi məşhurlardan təbrik mesajı gəlib. Gəlinin geyimi isə izləyicilərin diqqətini çəkib.**

***Qeyd edək ki, aktyor ”Kavak yelleri” serialında Efe obrazı ilə yadda qalıb. Daha sonra da bir sıra serial və filmlərdə yer alıb. Aktyor ötən il evliliyə ilk addımını ataraq 6 illik sevgilisi ilə nişanlanıb.***



# Pilotun son 3 kəlməsi

## Təyyarə qəzasının sirri açıldı

**Braziliyanın Rio de Janeyro şəhərindən Fransanın paytaxtı Parisə uçan ”Air France” aid airbus 1 iyun 2009-cu ildə 216 sərnişin və 12 heyətlə Atlantik Okeanının üzərindən keçərkən radardan itib. Təyyarənin qalıqları bir neçə gün sonra Braziliya sahillərində aşkarlanıb. Məlum olub ki, təyyarə Atlantik Okeanı üzərində qəzaya uğrayıb.**

”Şərq” ”Milliyet.com.tr”yə istinadən bildirir ki, qəzayla bağlı başladılan axtarışlarda təyyarənin ”qara qutusu” tapılsa da, qalıqların tapılmasına tam 2 il vaxt sərf edilib. Fransa Havaçılık Dairəsi müfəttişləri qəzayla bağlı yekun sənədi nəhayət 2012-ci ildə yayımlayıb. Sənəddə qəzanın bir neçə səbəbdən baş verdiyi açıqlanıb. Ən əsas səbəb kimi isə təyyarənin hansı hündürlükdə və hansı sürətlə uçduğunu müəyyənləşdirmək üçün istifadə edilən cihazın fırtınanın təsiri ilə buzlaması, nəticədə yanacaq itkisinin baş verdiyinin anlaşılmaması göstərilib. Pilot heyəti isə texniki nasazlığı aradan qaldırmaq üçün gərəkəni etməyib. Nasazlıq baş verdiyi zaman təyyarənin kapitanı, təcrübəli pilot Mark Duboisin istirahət dəqiqələri imiş, təyyarənin idarə edilməsi 2 gənc və təcrübəsiz pilotun David Robert və Pyer Cedric Bonin öhdəsində qalıb, onlar isə cihaz xarab olduğundan sürət və hündürlük barədə dəqiq məlumat əldə edə bilmədiklərindən təyyarəni əl sükanı ilə idarə etməyə başlayıblar və təyyarənin burnunu aşağı yönəltmək əvəzinə, yuxarı yönəldiblər. Təyyarə havada qala bilməyib və qəza qaçılmaz olub. Təyyarə 11 min 600 metr yüksəklikdən 3 dəqiqə 30 saniyə içində okeana düşüb. Tapılan ”qara qutu” isə pilotların son anlardakı danışığını qeydə alıb. Köməkçi pilotlar təcrübəli pilotu köməyə çağırıblar,



onun pilot kabinəsinə gəlməsi 1 dəqiqə çəkib. Pilot kabinəyə gəlsə də, təyyarəni xilas etmək artıq mümkün olmayıb. Son anlarda Robertin ”Aman Allah, yerə çırpılacağıq! Bu, doğru deyil! Nə baş verir?!” çığırtısına digər pilot Bonin ”lənətə gəlsin! Deyəsən, öləcəyik”, cavabı verib. Qəzaya bağlı 2011-ci ildə başladılan məhkəmə 8 il sonra sonuclanıb. Məhkəmə qəzanın pilotların səhvi ucbatından baş verdiyini təsdiqləyib, şirkətə qarşı iddiaları təsdiqləməyib. Lakin həlak olmuş sərnişinlərin doğmaları təkrar iddia qaldıraraq aviaşirkətin cəzalanmasını tələb ediblər. Amma məhkəmə yenə də ”dəqiq sübutların tapılmaması” səbəbiylə ”Air France” və ”Airbus” u günahsız elan edib. Təyyarə qəzasında həlak olan 228 nəfərdən biri də Türkiyə vətəndaşı Fatma Ceren Necipoğludur.

**Məlahət Rzayeva**



# Heç nə silinməyib

## Çayda itirdiyi fotoaparat 13 il sonra üzə çıxdı

**İtirdiyiniz fotoaparatı birisi 13 il sonra tapıb, içindəki fotolarla birgə təslim etsə, nə edərdiniz? Nəzərə alın ki, fotoaparat sadəcə itməyib, palçıqlı bir çayı keçərkən düşüb. Onun yaddaşında hansısa fotonun qalması isə əsl möcüzədir. Belə bir hadisə amerikalı Coral Elisenin başına gəlib. ”Milliyet.com.tr” xəbər verir ki, Coral 3 iyul 2010-cu ildə Kolorado ştatında Animas çayı boyunca gəzintiyə çıxıb.**



Çaydan güclü axın keçdiyi yerdə səntirləyib, az qalıb yıxılsın. Ayaq üstə qalmağı bacarsa da, fotoaparatının ipinin qopduğunu və aparatın çaya düşdüyünü fərq edib. Təəssüflənsə də, əlacsız qalıb. Fotoaparatda Coralın şirin xatirələrini canlandıran xeyli şəkilləri olub. Coral bir daha fotoaparatını əldə edə bilməyəcəyini düşünüb, ondan ümidini üzüb. 13 il sonra sosial şəbəkə izləyiciləri tərəfindən etiketləndiyini fərq edib. Diqqət etdikdə gözlərinə inanmayıb. Kimsə onun 13 il əvvəl çəkdirdiyi fotoları feysbuk səhifəsinə yerləşdiribmiş. Sosial şəbəkədə bunlar yazılırdı: ”Baxın, birisi sizin fotoaparatınızı tapıb. Və fotolarınızı ”Durango qrupu” adlı feysbuk səhifəsinə yerləşdirib”. Məlum olub ki, Coralın çayda itirdiyi fotoaparatı balıq ovuna gedən 34 yaşlı Spenser Qreyner tapıb. O, çay kənarındakı zibilliyi təmizləyərkən palçığa batmış fotoaparatı fərq edib. Əvvəlcə düşünüb ki, bu aparat daha bir işə yaramaz. Maraq ona güc gəlib və aparatın yaddaş kartını çıxararaq kompüterə daxil edib. Heyrətinə rəğmən kart açılıb və fotolar üzə çıxıb. 2010-cu ilə aid 179 foto. Bu fotoların sahibi üçün çox önəmli olacağını düşündüyündən onları sosial şəbəkədə paylaşmaq qərarına gəlib. Fotolara qısa zamanda çoxları reaksiya verib. Tanışlar tapılıb, nəhayət, Coralla əlaqə yarada biliblər. Fotolar arasında Coralın subaylığa vida mərasimi və toyunda çəkilənlər də olub. Fotoaparatı tapan və fotolara yenidən həyat verən şəxsə təşəkkür edən Coral ”inanmazdım ki, illər sonra bu fotolar mənə geri dönəcək, Özümü xoşbəxt sayıram”, - deyib.

**Məlahət**

## Oruc vaxtı ac qalmaq xərçəngin qarşısını alır

Professorlar deyirlər ki, xərçəng 3 gündən bir aya qədər oruc tutduqda hətta başlanğıc mərhələdə ölür



**Yaxın Şərq xərçəng xəstələrinin sayının ən az olduğu ərazidir. Bunun bir səbəbi orucluq ola bilər. Məsələ ondadır ki, müsəlmanlar 12 ayın bir ayını oruc tuturlar.**

”Medicina” xəbər verir ki, müsəlmanlar orucu gün çıxmamışdan öncə tutub, gün batandan sonra açırlar.

Mütəxəssilər bunu interval aclıqla bir tutur.

Oruc vaxtı ac qalmaq xərçəngə tutulmanın qarşısını alır.

Müsəlmanlar bu xəstəliyə xərçəng deyil, bədən hüceyrələrindən bir neçə dəfə çox enerji alan heyvan deyirlər. Çoxalır və çoxalır (metastazlar), sonra bədənin bütün enerjisini tükədir, bundan sonra ölümcül nəticə baş verir. Bu heyvanı yeməkdən məhrum etdikdə o zəifləyir və yox olur.

Əlcəzair Universitetinin professorları deyirlər ki, xərçəng 3 gündən bir aya qədər oruc tutduqda hətta başlanğıc mərhələdə ölür. Ac qalmaq, heç nə yeməmək və yalnız təmiz su içmək deməkdir. İnsandan təbii yolla bərk qara nəcis çıxan kimi bu xəstəliyin bitdiyi hesab olunur.

Alimlərin fikrincə, bu təcrübə insanlara öz çəkisini normal saxlamağa və şəkərli diabet, xərçəng, Alsheymer, eləcə də ürək-damar sistemi xəstəliklərinin inkişafına müqavimət göstərməyə imkan verəcək.

Belə bir müalicəvi təsir, yeməkdən müvəqqəti imtinanın bədənin stresə daha təsirli cavab verməsi, iltihabi prosesləri dayandırması, şişləri ”qidalanma”dan məhrum etməsi və zədələnmiş hüceyrə elementlərinin aradan qaldırılmasını sürətləndirməsi ilə əlaqədardır.

Tədqiqatçılar belə nəticəyə gəliblər ki, gündə üç dəfə yemək sistemi təkamül baxımından anormaldır. Belə ki, müstəqil olaraq özlərinə qida əldə edən əcdadlarımızın qida rasionu qeyri-müntəzəm olub. Bu da sağlamlığın açarıdır.

## Ərə getmək üçün 4 il gözləməlidir



**Türkiyəli aktrisa Alina Bozla sevgilisi Mithat Can Özerin toyu ilə bağlı bəzi məqamlar üzə çıxıb.**

Axşam.az xəbər verir ki, Mithat Can Özer Portuqaliya vətəndaşlığı aldıqdan sonra cütlük nikah masasına əyləşəcək.

24 yaşlı aktrisa bunun üçün 2027-ci ilə kimi gözləməli olacaq.

*Qeyd edək ki, Mithat müğənni Sezen Aksunun oğludur.*